## Slovakiya Milli Şurasının sədri Azərbaycana rəsmi səfərə gəlib



**Slovakiya Respublikası Milli Şurasının sədri Boris Kollar iyunun 10-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Slovakiya Respublikası Milli Şurasının sədri Boris Kolları Milli Məclis sədrinin müavini Fəzail İbrahimli, Azərbaycan-Slovakiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Anar Məmmədov və digər rəsmi şəxslər qarşılayıblar.

## Qlobal istiləşmə təsirini göstərdi

### Xəzərdə suyun səviyyəsi azalıb



**Xəzər dənizində suyun səviyyəsinin aşağı düşməsi iqlim dəyişiklikləri ilə bağlıdır.**

Bunu Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsinin rəisi Nazim Mahmudov deyib.

O bildirib ki, 2005-ci ildən Xəzərin suyunun geri çəkilməsini daha çox müşahidə etməyə başlamışıq: "Xəzərə tökülən çaylarda suyun azalması müşahidə olunur. Bunlar qlobal istiləşmənin təsiridir. Bu, dənizdə yaşayan canlıların qida zəncirinin azalmasına gətirib çıxarır. Proses davam etməkdədir".



## Validеynlərini itirmiş uşaqlar

### Onlara ilk dəfə 265 manat kompensasiya ödəniləcək

**Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar ilk dəfə işə düzələn zaman müəyyənləşdirilmiş normativlər üzrə paltar, ayaqqabı, yumşaq inventar və avadanlıq əvəzinə öz arzularına əsasən, 265 manat məbləğində pul kompensasiyası ilə təmin oluna biləcəklər.**

Nazirlər Kabineti bununla bağlı "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında" qərarında müvafiq dəyişiklik edib.

Qərara əsasən, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların arasından olan şəxslər də paltar, ayaqqabı, yumşaq inventar və avadanlıqla və ya öz arzularına əsasən, 265 manat məbləğində pul kompensasiyası ilə təmin olunacaqlar.

(səh.2)

№ 102 (5624), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 11 iyun 2022-ci il (şənbə)




## Səhiyyə Nazirliyinin səlahiyyətlərindən biri alınaraq TƏBİB-ə verilib

**Səhiyyə Nazirliyinin səlahiyyətlərindən biri alınaraq TƏBİB-ə verilib.**

Bu, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" və "Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi haqqında" fərmanlarına dəyişiklik etməsi ilə mümkün olub.

(səh.2)

## Ukrayna ilə dialoq aparılmalıdır

### Şolts: "Rusiyaya qarşı sanksiyalar hərbi əməliyyatlar dayandırıldıqdan sonra ləğv edilməyəcək"



**Qərbin Rusiyaya qarşı sanksiyaları Ukraynada hərbi əməliyyatlar başa çatdıqdan dərhal sonra ləğv edilməyəcək, bunun üçün vəziyyətin normallaşdırılması və Moskva ilə Kiyev arasında ölkənin suverenliyini təmin edən razılaşma olmalıdır.**

"Report" TASS-a istinadən xəbər verir ki, bu barədə Almaniya kansleri Olaf Şolts Serbiya Prezidenti Aleksandr Vuçiçlə Belqradda keçirdiyi birgə mətbuat konfransında bildirib.

"Bizim tətbiq etdiyimiz sanksiyalar - indi bu, altıncı məhdudiyyətlər paketidir - və bütün digər ölkələrin sanksiyaları - bu, müharibədən sonra belə bitəcək bir şey deyil. İlkin şərt vəziyyətin dəyişməsi, yaxşılaşmasıdır. Rusiya sülh şərtlərini diktə edə bilməz, ancaq Ukrayna ilə dialoq aparmalı, Ukraynanın ərazi bütövlüyü və suverenliyinə zəmanət verəcək sazişə razılaşmalıdır", - Şolts deyib.

# Sergey Lavrovun "naqolay" açıqlamasının üç hədəfi göründü

### Birincisi, Rusiya Azərbaycanın "əsəblərini yoxlayır", müqavimətinin hara qədər ola biləcəyini sınayır



**Azərbaycan Xarici İşlər Nazirliyi Rusiya Xarici işlər naziri Sergey Lavrovun Fərrux kəndi ilə əlaqəli vəziyyətin sərhədlərin delimitasiyası kontekstində nəzərdən keçiriləcəyinə dair fikrini şərh edib.**

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, Azərbaycan və Ermənistan tərəfindən təsis edilmiş delimitasiya komissiyalarının fəaliyyəti əvvəlcədən nəzərdə tutulduğu kimi məhz iki ölkənin dövlət sərhədinin delimitasiyası məqsədini güdür. Bu proses çərçivəsində Azərbaycan-Ermənistan dövlət sərhədindən kənar hər hansı bir məsələyə baxılması nəzərdə tutulmur. Xatırladaq ki, Rusiya XİN başçısı Sergey Lavrov ermənistanlı həmkarı Ararat Mirzoyanla birgə brifinqdə Fərrux kəndi ilə bağlı sualı cavablandırarkən bu məsələnin delimitasiya prosesi çərçivəsində həll edilməli olduğunu iddia edib. Lavrov vurğulayıb ki, Qarabağın Fərrux kəndindəki vəziyyət Rusiya sülhməramlılarının diqqət mərkəzindədir.

(səh.3)

## "700 balın olmaması sualların çətinliyi ilə əlaqədar deyil"

### Məleykə Abbaszadə: "Problem orta statistik abituriyentin nəticəsinin aşağı olmasıdır"




**Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə qəbul imtahanlarının I cəhdində heç bir abituriyentin maksimum nəticə (700 bal) toplaya bilməməsinə aydınlıq gətirib. O bildirib ki, bu, sualların çətinliyi ilə əlaqədar deyil:**

"699 balı toplayanla 700 balı toplayan eyni səviyyədə olan uşaqlardır. Ümumiyyətlə, 600, 650 baldan yuxarı nəticə göstərən uşaqlar arasında pedaqoji cəhətdən heç bir fərq yoxdur. Ola bilər ki, hansısa bir materialla əlaqədar nəyisə bilməyib və ya səhv buraxıblar.

(səh.2)



## Bakıda və Abşeronda yağış suları üçün şəbəkə yoxdur

**"Bakıda və Abşeron yarımadasında yağış suları üçün şəbəkə yoxdur".**

APA xəbər verir ki, bunu "Azərsu" ASC-nin Tullantı su şəbəkələrinin idarə edilməsi şöbəsinin rəisi Xalid Abbasov deyib.

O bildirib ki, cəmi 10% yağış sularını ötürmək üçün şəbəkə mövcuddur:

**"Buna görə də yağış suları birbaşa bizim su şəbəkəsinə daxil olur. Yağış suları təmizləyici qurğulara və ya kollektorlara axıdılır".**

## Koronavirusdan 1 nəfər vəfat edib

### 16 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 16 yeni yoluxma faktı qeydə alınıb, 6 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 792 863 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 783 076 nəfər müalicə olunaraq sağalıb, 9 715 nəfər vəfat edib, aktiv xəstə sayı 72 nəfərdir.

## Bərdədə 17 yaşlı qız qaçırılıb

### Hadisə ilə bağlı 4 nəfər saxlanılıb



**Bərdədə 17 yaşlı qız qaçırılıb, 4 nəfər saxlanılıb. Bu barədə "Report"a Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Bərdə regional qrupundan məlumat verilib.**

Bildirilib ki, iyun ayının 9-da axşam radələrində rayonun Dağlar kəndində yaşayan 2005-ci il təvəllüdlü yeniyetmə qızın öz istəyinə zidd olaraq evlənmək məqsədilə qaçırılması barədə Rayon Polis Şöbəsinə (RPŞ) məlumat daxil olub. Bərdə RPŞ-nin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə əməli törətməkdə şübhəli bilinən 4 nəfər saxlanılıb.

*Saxlanılan O.Əzizov, R.Əzizov, E.Ələkbərov və İ.Əzizova barəsində Cinayət Məcəlləsinin 144.2.1-ci maddəsi ilə cinayət işi başlanılıb, istintaq hərəkətləri davam etdirilir.*



## Şuşa adı ilə alver edirlər, möhtəkirlik edirlər

### Kərim Kərimli: "Bu şəhərdə eyni vaxtda 500 nəfər eyni küçə ilə addımlaya bilməz ey..."

(səh.4)



## Rus bölməsi məktəblərinin keyfiyyəti aşağı düşüb

### Emin Əmrullayev: "Bunun özü cəmiyyət, təhsil ictimaiyyəti üçün bir sualdır"

(səh.3)





# Əməkdaşlığın inkişafı üçün əlverişli şərait mövcuddur

## Azərbaycan və Türkmənistan prezidentləri arasında məktub mübadiləsi olub

**Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədov Prezident İlham Əliyevə məktub ünvanlayıb.**

*Məktubda deyilir:*

"Türkmənistan və Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyi münasibətilə Türkmənistan xalqı və hökuməti adından, şəxsən öz adımdan Sizə və ölkənizin bütün qardaş xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Ötən illər ərzində ölkələrimiz arasında mənəvi-mədəni dəyərlərin birliyinə, həmçinin hüquq bərabərliyi və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan ikitərəfli dostluq əlaqələri, o cümlədən qarşılıqlı faydalı tərəfdaşlıq layiqincə inkişaf edir, davamlı olaraq genişlənir.

Hazırda Türkmənistan və Azərbaycan Respublikası siyasi-diplomatik, ticari-iqtisadi və mədəni-humanitar sahələrdə müvəffəqiyyətlə əməkdaşlıq edirlər.

Zamanın sınağından keçmiş faydalı əməkdaşlığın möhkəmlənməsi və inkişafı üçün bundan sonra da lazımi səyləri göstərməyə hazır olduğumuzu təsdiq edirik.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək, Sizə səmimiqəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və işlərinizdə yeni müvəffəqiyyətlər, bütün Azərbaycan xalqına isə tərəqqi və rifah arzulayıram".

**Prezident İlham Əliyev də Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədova məktub ünvanlayıb.**

*Məktubda deyilir:*

"Bu il biz Azərbaycan Respublikası ilə Türkmənistan arasında əlamətdar ildönümü - diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik. Bu xoş hadisə ilə əlaqədar Sizi ürəkdən təbrik edir, Sizə və qardaş Türkmənistan xalqına ən səmimi arzularımı çatdırıram.

Azərbaycan ilə Türkmənistan arasındakı münasibətlər tarixən dostluq şəraitində yaşamış xalqlarımızın iradəsindən qaynaqlanır. Ortaq tarixə, qardaşlığa və qarşılıqlı hörmətə əsaslanan əlaqələrimizin ötən dövr ərzində dinamik inkişaf edərək keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi və bu gün strateji tərəfdaşlıq xarakteri daşıması xüsusi məmnunluq doğurur.

Qarşılıqlı səfərlər, müntəzəm təmaslar, müxtəlif sahələrdə imzalanan sənədlər, həyata keçirilən birgə layihələr əməkdaşlığımızın genişlənməsində mühüm rol oynamışdır. Siyasi əlaqələrimizin yüksək səviyyəsi iqtisadiyyat, nəqliyyat-logistika, enerji, humanitar və digər sahələrdə səmərəli işbirliyimiz ilə müşayiət olunur. Beynəlxalq təşkilatlar çərçivəsində də münasibətlərimiz uğurla davam edir.

Hesab edirəm ki, Azərbaycan ilə Türkmənistan arasında bütün sahələrdə, xüsusilə nəqliyyat sahəsində əməkdaşlığımızın inkişafı üçün əlverişli şərait mövcuddur. Əminəm ki, bu imkanlardan istifadə edərək birgə səylərimizlə ənənəvi dostluq əlaqələrimizin möhkəmlənməsinə və qarşılıqlı fəaliyyətimizin əhatə dairəsinin daha da genişlənməsinə nail olacağıq.

Sizi bir daha səmimiyyətlə təbrik edir, möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, qardaş Türkmənistan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram".

# Səhiyyə Nazirliyinin səlahiyyətlərindən biri alınaraq TƏBİB-ə verilib




**Səhiyyə Nazirliyinin səlahiyyətlərindən biri alınaraq TƏBİB-ə verilib.**

Bu, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" və "Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi haqqında" fərmanlarına dəyişiklik etməsi ilə mümkün olub.

Dəyişikliyə əsasən, Səhiyyə Nazirliyinin əlilliyin qiymətləndirilməsi üçün həkim-məsləhət və hərbi-həkim komissiyalarının rəsmiləşdirdikləri tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin vahid mərkəzləşdirilmiş reyestrini aparmaq və "Elektron hökumət" portalı vasitəsilə bu reyestrə real vaxt rejimində çıxışı təmin etmək səlahiyyəti ləğv edilib.

Digər dəyişikliklə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə (TƏBİB) tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin vahid mərkəzləşdirilmiş reyestrinin operatoru funksiyalarını həyata keçirmək və "Elektron hökumət" portalı vasitəsilə real vaxt rejimində aidiyyəti dövlət orqanlarının (qurumlarının) həmin reyestrə çıxışını təmin etmək tapşırılıb.

Eyni zamanda TƏBİB tibbi-sosial ekspertiza müayinəsinə göndərişlər barədə məlumatların real vaxt rejimində Səhiyyə Nazirliyinin "Vahid Səhiyyə İnformasiya Sistemi"nə ötürülməsini təmin etməlidir.

# *Yelena Zelenskaya:* Ukrayna orusunda 1000-dən çox qadın komandir var



**Ukrayna Silahlı Qüvvələrində 37 min qadın xidmət edir, onlardan mindən çoxu artıq komandir olub.**

AZƏRTAC Ukrayna Prezidenti Ofisinin rəsmi saytına istinadla xəbər verir ki, bu barədə Ukraynanın birinci xanımı Yelena Zelenskaya Brüsseldə keçirilən "Münaqişələrdə qadınlar" beynəlxalq konfransında videoformatda iştirak edərkən deyib.

"Bizim həkimlərin əksəriyyəti qadınlardır. Sahibkarlarımızın 50 faizi qadınlardır və onlar iqtisadiyyatı inkişaf etdirmək üçün çalışırlar. Ukrayna Silahlı Qüvvələrinin sıralarında 37 min qadın var. Artıq mindən çox qadın komandir olub", - deyə birinci xanım bildirib.

Zelenskaya vurğulayıb ki, ukraynalı qadınları passiv qurban adlandırmaq olmaz, çünki onların hər birinin özünəməxsus müqavimət tarixi var.

"Bizim qadınlarımız həyatlarının hər günü qələbəni yaxınlaşdıran super qəhrəmanlardır", - deyə Zelenkaya vurğulayıb.

# Valideynlərini itirmiş uşaqlar

## Onlara ilk dəfə 265 manat kompensasiya ödəniləcək



**Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar ilk dəfə işə düzələn zaman müəyyənləşdirilmiş normativlər üzrə paltar, ayaqqabı, yumşaq inventar və avadanlıq əvəzinə öz arzularına əsasən, 265 manat məbləğində pul kompensasiyası ilə təmin oluna biləcəklər.**

Nazirlər Kabineti bununla bağlı "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında" qərarında müvafiq dəyişiklik edib.

Qərara əsasən, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların arasından olan şəxslər də paltar, ayaqqabı, yumşaq inventar və avadanlıqla və ya öz arzularına əsasən, 265 manat məbləğində pul kompensasiyası ilə təmin olunacaqlar.

Qeyd edək ki, indiyə qədər valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar ilk dəfə işə düzələn zaman müvafiq normativlər üzrə paltar, ayaqqabı, yumşaq inventar və avadanlıqla, habelə respublika üzrə orta aylıq əmək haqqının beş mislindən az olmayan miqdarda birdəfəlik müavinətlə təmin olunublar. Beləliklə, dəyişiklikdən sonra valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər ilk dəfə işə düzələn zaman müvafiq normativlər üzrə paltar, ayaqqabı, yumşaq inventar və avadanlıqla və ya öz arzularına əsasən, 265 manat məbləğində pul kompensasiyası ilə, habelə respublika üzrə orta aylıq əmək haqqının beş mislindən az olmayan miqdarda birdəfəlik müavinətlə təmin olunacaqlar.

# Müharibə adamlarına qayğı dövlətin ən prioritet vəzifəsidir

## Hərbçilərin əlillik dərəcəsinin qiymətləndirilməsi sürətlə həyata keçirilir



**Vətən müharibəsində yaralanmış hərbçilərin əlilliyinin qiymətləndirilməsi, reabilitasiya xidmətləri və vasitələri ilə təminatı, əlillik sahəsində tətbiq olunacaq yeni meyarlara dair mətbuat konfransı keçirilib. Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin sədri Anar Bayramov qeyd edilən istiqamətlərdə görülmüş işləri diqqətə çatdırıb.**

Bildirilib ki, müharibədən sonra aidiyyəti qurumların nümayəndələrindən ibarət Komissiya müharibədə yaralanmış qazilərin əlilliyinin qiymətləndirilməsi üçün operativ sənədləşdirmə işlərini yerinə yetirib. Yekun mərhələ kimi, Agentlik müalicə müddəti başa çatmış qazilərin əyani müayinələr əsasında əlilliyinin qiymətləndirilməsini aparıb, artıq 3 min qaziyə əlillik və sosial ödənişlər təyin olunub. 2021-ci il və cari il ərzində 91 min şəxsə əlillik təyin edilib. Təkcə bu ilin 5 ayında əvvəlki illərin müvafiq dövrləri ilə müqayisədə 2-3 dəfə çox - 30 min şəxsə əlillik təyin edilib. Qazilərin keyfiyyətli reabilitasiya xidmətləri ilə təminatında Nazirliyin son illərdə müasir tələblərə uyğun qurularaq təchiz olunmuş 12 reabilitasiya müəssisəsi bu sahədə mühüm potensial rolunu oynayır. 2022-ci il iyulun 1-dən ölkəmizdə əlillik sahəsində tətbiq olunacaq yeni meyarlardan da bəhs olunub. Qeyd edilib ki, yeni meyarlara əsasən, əlillik artıq 3 dərəcə üzrə məhdud çərçivədə deyil, orqanizmin funksiyalarının itirilməsi faizinin müəyyən edilməsi əsasında, daha əhatəli şəkildə qiymətləndiriləcək. Bu zaman şəxsin özünəqulluq, sərbəst hərəkətetmə, istiqamət seçmə, ünsiyyət, davranışına nəzarət etmə, öyrənmə və əmək fəaliyyəti üzrə insanın həyat fəaliyyətinin 7 əsas kateqoriyasının məhdudlaşma dərəcəsi əsas götürüləcək.

**Millət vəkili Cavid Osmanov "Şərq"ə deyib ki, Azərbaycan sosial siyasət yürüdən bir ölkədir. Deputat vurğulayıb ki, son illər ərzində ən geniş islahatlar məhz sosial sahədə baş verib:** "Azərbaycan iqtisadi baxımdan gücləndikcə sosial ödənişlərin, aylıq müavinətlərin məbləği də əsaslı surətdə artırılıb. Mühüm məsələlərdən biri də əlilliyin müəyyənləşməsidir və bu istiqamətdə xeyli işlər görülüb. Xüsusən, Vətən müharibəsindən sonra əldə edilmiş tarixi qələbədən sonra müharibədə yaralanmış, xəsarət almış hərbçilərin əlillik dərəcəsinin qiymətləndirilməsi sürətlə həyata keçirilməkdədir. Əminliklə söyləmək lazımdır ki, ölkəmizdə əlilliyin müəyyənləşməsi və təyin olunmuş müavinətlər dünyanın bir çox ölkəsi üçün nümunədir. Qeyd edim ki, ümumilikdə son 3 ildə 160 mindən çox əlillik təyinatı həyata keçirilib. Postmüharibə dövründə 2500 qaziyə səmərəli reabilitasiya və sosial-psixoloji xidmətlər göstərilib. 44 günlük Vətən müharibəsində yaralanaraq əzalarını itirmiş 200 qazinin, ümumilikdə 300 müharibə əlilinin yüksək texnologiyalı son nəsil protezlərlə təminatı proqramı uğurla icra olunub. Postmüharibə dövründə 1400-dən çox müharibə əlili 19,3 mindən çox reabilitasiya vasitəsi ilə təmin olunub. Ölkə başçısı, müzəffər Ali Baş Komandan şəhid ailələri və qazilərə münasibətdə xüsusi diqqət və qayğı göstərilməsini bütün dövlət strukturları qarşısında ən prioritet vəzifə kimi qoyub".

**İsmayıl Qocayev**

# "700 balın olmaması sualların çətinliyi ilə əlaqədar deyil"

## Məleykə Abbaszadə: "Problem orta statistik abituriyentin nəticəsinin aşağı olmasıdır"



**Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə qəbul imtahanlarının I cəhdində heç bir abituriyentin maksimum nəticə (700 bal) toplaya bilməməsinə aydınlıq gətirib. O bildirib ki, bu, sualların çətinliyi ilə əlaqədar deyil:**

"699 balı toplayanla 700 balı toplayan eyni səviyyədə olan uşaqlardır. Ümumiyyətlə, 600, 650 baldan yuxarı nəticə göstərən uşaqlar arasında pedaqoji cəhətdən heç bir fərq yoxdur. Ola bilər ki, hansısa bir materialla əlaqədar nəyisə bilməyib və ya səhv buraxıblar. Bununla əlaqədar maksimum nəticə olmayıb. Biz burada heç bir problem görmürük. Problem orta statistik abituriyentin nəticəsinin aşağı olmasıdır".

Məleykə Abbaszadə deyib ki, çətin suallara 25-30 faiz kontingent cavab verirsə, deməli, suallar işləyir: "Onsuz da bu suallar hər kəsin cavab verə bilməsi üçün nəzərdə tutulmayıb".

### "Hər bir şagird icbari təhsili başa vurmalıdır"

Məleykə Abbaszadə deyib ki, 9-cu sinifdə aşağı nəticə göstərənlərlə bağlı aparılan təhlillər onu deməyə əsas verir ki, nəticəsi olmayan şagirdlər məktəbi çoxdan atan və təhsildən uzaqlaşanlardır. Onun sözlərinə görə, oxuyub-yazma bacarığı olmayanların sayının açıqlanması ilə belə halların qarşısını almaq hədəflənir: "Hər bir şagird icbari təhsili başa vurmalıdır".

### "İmtahanlardan xaric edilən abituriyentlərə qətiyyən ikinci şans verilməyəcək"

Dövlət İmtahan Mərkəzinin rəhbəri qayda pozuntusuna görə imtahanlardan xaric edilən abituriyentlərə ikinci şansın verilib-verilməyəcəyinə aydınlıq gətirib. Bildirib ki, qayda-qanunu pozanlara qətiyyən ikinci şans verilməyəcək: "Bacarana baş qurban", "mən aldatdım" deyənlər "qəhrəman"a çevrilir. Onlar 10-15 nəfərdir. Onları niyə düşünürsünüz? Onlar elə bir şərait yaradır ki, kimdəsə inam ölür. Onlara ikinci şans verilməsini deyənlər nə üçün minlərlə abituriyenti deyil, yalnız qayda-qanunu pozanları fikirləşir. Onlar bu addımı bilə-bilə atıblar. Onların bu il müsabiqədə iştirak etmək hüququ yoxdur, bu, qaydalarda qeyd edilib".

### "Gələn ildən inşası gedən yeni binada imtahanlar kompüterdə keçiriləcək"

Məleykə Abbaszadə imtahanların kağız üzərində deyil, kompüterdə keçirilməsi məsələsinə də münasibət bildirib. Onun sözlərinə görə, artıq müəyyən imtahanlar kompüter vasitəsilə keçirilir: "Elektron imtahanlara keçidlə əlaqədar xüsusi platforma yaradılıb. Sınaq imtahanlarını elektron formada daima keçiririk. Kütləvi imtahanlarda bu keçid təkcə kompüterin sinifdə, məktəbdə olması ilə deyil, müxtəlif mərhələlərdə kompüterlərin və müvafiq proqramlarda işləməyi bacaran müəllimlərin sayının artırılmasına da gərək diqqət göstərək. Hazırda 800 iş yeri olan bina inşa olunur və gələn ildən orada daimi olaraq kompüterdə imtahanlar keçiriləcək. Sınaq imtahanları, 1000-1500 nəfərlik şəxsin iştirakı işə baş tutan imtahanlar da həmin binada keçiriləcək. Bölgələrdə belə mərkəzlər mövcud olandan sonra kompüter imtahanlarına keçid edə bilərik. Bu imtahanlar bir gündə baş tuta bilməyəcək. Bunlar da hansısa cədvəl əsasında aparılacaq. Bu istiqamətdə Təhsil Nazirliyi və müvafiq qurumlarla sıx əməkdaşlıq edirik".

**İsmayıl**



# Sergey Lavrovun "naqolay" açıqlamasının üç hədəfi göründü

## Birincisi, Rusiya Azərbaycanın "əsəblərini yoxlayır", müqavimətinin hara qədər ola biləcəyini sınayır

**İsmayıl Qocayev**

**Azərbaycan Xarici İşlər Nazirliyi Rusiya Xarici işlər naziri Sergey Lavrovun Fərrux kəndi ilə əlaqəli vəziyyətin sərhədlərin delimitasiyası kontekstində nəzərdən keçiriləcəyinə dair fikrini şərh edib.**

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, Azərbaycan və Ermənistan tərəfindən təsis edilmiş delimitasiya komissiyalarının fəaliyyəti əvvəlcədən nəzərdə tutulduğu kimi məhz iki ölkənin dövlət sərhədinin delimitasiyası məqsədini güdür. Bu proses çərçivəsində Azərbaycan-Ermənistan dövlət sərhədindən kənar hər hansı bir məsələyə baxılması nəzərdə tutulmur. Xatırladaq ki, Rusiya XİN başçısı Sergey Lavrov ermənistanlı həmkarı Ararat Mirzoyanla birgə brifinqdə Fərrux kəndi ilə bağlı sualı cavablandırarkən bu məsələnin delimitasiya prosesi çərçivəsində həll edilməli olduğunu iddia edib. Lavrov vurğulayıb ki, Qarabağın Fərrux kəndindəki vəziyyət Rusiya sülhməramlılarının diqqət mərkəzindədir. Rusiya baş diplomatının açıqlaması Azərbaycan ictimaiyyətinin kəskin reaksiyasına səbəb olmuşdu. Çünki Fərrux - Azərbaycanın Qarabağ inzibati ərazisində yerləşən kiçik bir kənddir və Ordumuzun nəzarəti altındadır. Rus sülhməramlıları isə hazırda o kənddə müvəqqəti yerləşib. Narazılıqdan sonra Rusiya Xarici İşlər Nazirliyi Sergey Lavrovun İrəvanda səsləndirdiyi fikirlərə düzəliş edib.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə deyib ki, Lavrovun İrəvanda delimitasiya prosesinin Xocalının Fərrux kəndinə aid etməsi haqda "naqolay" açıqlaması suallar yaratdı. Analitik bildirib ki, delimitasiyanın dövlət sərhədində aparıldığını Rusiyanın baş diplomatı da yaxşı bilir:** "Delimitasiyanın Qarabağa aid edilməsinin Rusiyanın bölgəyə dair planına aid olduğunu düşünsək belə, bu, məntiqi baxımından da qeyri-mümkündür. Bəs Lavrov niyə belə dedi? Rusiya xarici işlər nazirinin erməniləri sakitləşdirmək istədiyi aydın görünür. Hərçənd, delimitasiyanın Fərruxa aid edilməsini 70 yaşlı qocanın "ağılsızlığı" olmadığını düşünsək, burada yalnız bir mümkün ehtimal yaranır. Qarabağda deskalasiyanın yeganə yolu 10 noyabr razılaşmasının 4-cü bəndinin - erməni qoşunların çıxarılması - icra edilməsidir. Sərhədin delimitasiyası prosesində bu məsələ hüquqi baxımdan da aktuallaşır. Çünki bir ölkənin qoşunları rəsmi şəkildə digər ölkənin ərazisində olduğu müddətdə həmin ölkələrin dövlət sərhədini qarşılıqlı şəkildə tanıması mümkün deyil. Baş diplomatın üçtərəfli razılaşmaların icrasını sürətləndirmək məqsədilə Ankaradan birbaşa İrəvana uçması fonunda "bu məsələlər delimitasiya prosesində həllini tapacaq" açıqlamasını verməsini yalnız erməni qoşunların çıxarılmasına aid etmək olar. Bunun yeganə məntiqli açıqlaması budur. O ki qaldı Rusiya XİN-in geri addım atmasına, Moskva bütün bunları xoşluqla etmir, Bakının tələbi qarşısında etməyə məcbur olur. Lakin bu cür təxribatlara yol verilməsi, ardınca edilən düzəlişlərin üç hədəfi var. Birincisi, Rusiya Azərbaycanın "əsəblərini yoxlayır", müqavimətinin hara qədər ola biləcəyini sınayır. İkincisi, Bakıya "separatçıları legitimləşdirə də bilərik" mesajını verir. Üçüncüsü, "separatizmin və təxribatın olmaması üçün Moskvanın mövqeyi nəzərə alınmalıdır" demək istəyirlər".

# Azərbaycan balanslı siyasətindən dönməyəcək

## Bakı Vaşinqtonun maraqlarını yaxşı anlayır

**Aygün Tahir**



**Azərbaycan-ABŞ münasibətləri tarixin mühüm dövrünü yaşayır. Dünyanın super dövləti ABŞ, əsas güc mərkəzlərindən biridir. Bu ölkənin Azərbaycanla fəal siyasi dialoqu mövcuddur.**

Görünür, prezident İlham Əliyevlə Amerikanın ali rəsmi şəxsləri arasında keçirilən məhsuldar görüşlər, dövlətlərarası diplomatik əlaqələrin yüksəlməsi müəyyən qüvvələr tərəfindən həzm olunmur. Amerikanın Azərbaycandakı səfiri Li Litzenberqer brifinq keçirib. O, "Turan"ın "Niyə Bakıda hesab edirlər ki, Qərb sabitliyi pozmaq, rəngli inqilab təşkil etmək istəyir və bu məqsədlə müxalifəti və Azərbaycan hökumətinin tənqidçilərini maliyyələşdirir" sualına cavab verib. Səfir bildirib ki, ABŞ-ın Azərbaycanda sabitliyi pozmağa çalışması barədə fikir, yumşaq desək, əsassızdır.

Belə informasiyanın Azərbaycanın Qərb dövlətləri, ilk növbədə ABŞ ilə yaxınlaşmasını və əməkdaşlıq etməsini istəməyən yerdən gəlməsi mümkündür. Səfirin fikirlərinə əsasən, regionda sabitliyə təhlükə ABŞ yox, məhz Rusiyanın Ukraynaya qarşı təcavüzüdür:

"Təəssüf , Rusiya çox irrasional və gözlənilməz hərəkət edə bilər. Mən region ölkələrinin niyə belə narahat olduqlarını başa düşürəm. ABŞ bütün ölkələrin müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyəcək. Əgər biz belə təhdidləri görsək, müvafiq və mütənasib tədbirlər görüləcək".

**Mövzu ilə bağlı "Şərq"ə danışan siyasi şərhçi Aqşin Kərimovun qənaətincə, Bakı-Vaşinqton xəttindəki danışıqların intensivliyi Azərbaycan-ABŞ münasibətlərində təhlükəsizliyə dair yeni mexanizmlər formalaşdırılacağını göstərir:**

"ABŞ Cənubi Qafqaza dair baxış bucağını əvvəlki illərdəkinə nisbətən dəyişib. Çünki Azərbaycan regionda yeni reallıq yaradıb. Yeni dünya nizamının yaradılması üçün ABŞ-a alternativ bir üfüq kimi görünür. Ancaq Azərbaycan ABŞ-ın niyyət və məramından xəbərdardır. Vaşinqton diktə edən dəst-xəttindən kənara çəkilib yeni ideyalarla Bakının diqqətini çəkməyə məcburdur. ABŞ Rusiyanın postsovet ölkələrinə təhdid yaratdığını bilir.

Əslində özünün investisiyalarına və gələcək iqtisadi layihələrinə təhlükə yaranmamasını istəyir. Bunun üçün ikitərəfli və çoxtərəfli əməkdaşlıq formatında gələcək hərbi-siyasi məqsədlərini bərqərar etməkdən ötrü iqtisadi-siyasi əsaslar formalaşdırır.

Rusiya regiona daha yaxındır, həmçinin özünün hərbi-siyasi doktrinasını, xarici siyasət istiqamətlərini dəyişmədikcə, onun regiona təhdidi də üfüqlərdən itməyəcək.

Azərbaycan isə prosesləri dəyərləndirir. ABŞ-ın harada şirnikləndirici vədlər verdiyini, harada real addım ata biləcəyini təhlil edir. Azərbaycan balanslı siyasətinə sadiq qalaraq həm Rusiya, həm də Qərblə münasibətlərini lazımi səviyyədə qoruyub-saxlayacaq".



# Dövlət şəhid ailələrinin, qazilərin, əlillərin yanındadır

## Bu kateqoriyadan olan vətəndaşların işlə təminatı mərhələli şəkildə həllini tapacaq

**30 ilə yaxın erməni işğalı altında olan torpaqlarımız 44 günlük Vətən müharibəsində azad edildi. Qələbəmiz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli ordumuzun sarsılmaz gücü nəticəsində qazanıldı. Xalqımızın igid oğulları torpaq uğrunda gözünü qırpmadan canını sipər edib, şəhidlik zirvəsinə ucaldı.**

Eyni zamanda ön cəbhədə düşmənlə vuruşaraq, yaralanan qazilərimiz, hərbçilərimiz sayəsində bu gün Qarabağa qovuşmuşuq. Dövlətimiz hər zaman şəhid ailələrinə, qazilərə, əlillərə dəstəyini göstərir. Onların müalicələri davam etdirilir. Müayinələrindən sonra əlillik dərəcələri qiymətləndirilir. Reabilitasiya işlərinə cəlb olunurlar. Həmçinin sosial müavinətlərlə təmin olunurlar.

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin sədri Anar Bayramov bu istiqamətlərdə görülmüş işləri mətbuat konfransında diqqətə çatdırıb. Müharibədən sonra aidiyyəti qurumların nümayəndələrindən ibarət Komissiya müharibədə yaralanmış qazilərin əlilliyinin qiymətləndirilməsi üçün operativ sənədləşdirmə işlərinin yerinə yetirildiyi bildirilib.

Yekun mərhələ kimi, Agentlik müalicə müddəti başa çatmış qazilərin əyani müayinələr əsasında əlilliyinin qiymətləndirilməsini aparıb. Artıq 3 min qaziyə əlillik və sosial ödənişlər təyin olunub. Ümumilikdə son 3 ildə 160 mindən çox əlillik təyinatı reallaşdırılıb. 2021-ci il və cari il ərzində 91 min şəxsə əlillik təyin edilib. Təkcə bu ilin 5 ayında əvvəlki illərin müvafiq dövrləri ilə müqayisədə 2-3 dəfə çox - 30 min şəxsə əlillik təyin edilib. 44 günlük Vətən müharibəsində yaralanan 200 qazinin, ümumilikdə 300 müharibə əlilinin yüksək texnologiyalı son nəsil protezlərlə təminatı proqramı uğurla icra olunub. Mərkəzlərdə postmüharibə dövründə 2500 qaziyə səmərəli reabilitasiya və sosial-psixoloji xidmətlər göstərilib. 2022-ci il iyulun 1-dən ölkəmizdə əlillik sahəsində tətbiq olunacaq yeni meyarlardan da bəhs olunub. Yeni meyarlara əsasən, əlillik artıq 3 dərəcə üzrə məhdud çərçivədə deyil, orqanizmin funksiyalarının itirilməsi faizinin müəyyən edilməsi əsasında, daha əhatəli şəkildə qiymətləndiriləcəyi qeyd edilib. Bu zaman şəxsin özünəqulluq, sərbəst hərəkətetmə, istiqamət seçmə, ünsiyyət, davranışına nəzarət etmə, öyrənmə və əmək fəaliyyəti üzrə insanın həyat fəaliyyətinin 7 əsas kateqoriyasının məhdudlaşma dərəcəsi əsas götürüləcək.

**Millət vəkili Rüfət Quliyev "Şərq"ə açıqlamasında bildirib ki, dövlətimiz müzəffər ordumuzun nümayəndələrinə kifayət qədər diqqət göstərir:**

"Cənab Prezidentin dəfələrlə sosial qayğıya ehtiyacı olan insanların problemlərinə dövlət qurumları, nümayəndələri, məmurlarının çox ciddi yanaşılması istiqamətində dəfələrlə tapşırıqları olub. Daha çox qazilərin işlə təmin olunması üzrə fəaliyyətin icrası arzuolunandır. İmkan daxilində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) siyasəti həyata keçirilir. Amma qazilərin, Vətən müharibəsi iştirakçılarının, şəhid ailələrinin nümayəndələrinin ən böyük ehtiyac duyduğu məsələ qayğı və işlə təminatdır. Bununla bağlı daha çox çətinliklər regionlardadır. Bu məsələnin tezliklə həll olunması lazımdır ki, həm işləyib, ailələrini dolandırsınlar, həm də başları qarışsın. Qəbul etməliyik ki, hansısa fəaliyyətlə məşğul olmaları psixoloji cəhətdən problemlərinin unudulmasına vəsilə olur. ƏƏSMN-nin özünəməşğulluq proqramı mövcuddur. Həmin layihədən istifadə etmək, özünəməşğulluq hərəkatına qoşulmaları lazımdır. Təbii ki, hər biri sahibkar ola bilməz. Bildiyimiz kimi, xarici ölkələrdə işlək əhalinin 6-10 faizi sahibkarlıqla məşğul olur. Əgər 10 faiz bu qəbildən olan insanları özünəməşğulluqla təmin etsək, böyük bir sosial məsələ həll olar. Təbii ki, həmin şəxslərin maraq dairələri, bacardıqları işlər nəzərə alınmalıdır. Bu istiqamətdə daha diqqətli olmalıyıq. Ona görə ki, regionlarda belə bir başqa fəaliyyət sahəsi yoxdur. Yaxud da onlara digər bir formada kənd təsərrüfatı ilə əlaqəli yeni layihələr ayrılmalıdır".

**Deputatın qənaətincə, problemlər mərhələli şəkildə aradan qaldırılacaq:**

"Üzümü tutub məmurlara deyərdim ki, gəlin, bir az da qazi, şəhid ailələri və əlillərə mərhəmətli olaq. Lənkəranda 73-cü seçki dairəsindən seçilən deputat kimi o insanlara çox vaxt ayırmağı özümə borc bilirəm. Düşünürəm ki, bir çox məsələləri həll etməyə nail olmuşam. Görüşlərdə hansı problemlər qalıbsa, açıq-aşkar söyləmələrini istəyirəm. Dövlət məmurları hazırda bu istiqamətdə kifayət qədər diqqətlidir. Qazilərimiz, müharibə iştirakçıları, şəhid ailələri cəmiyyətimizin ən aparıcı qüvvələridir. Onlarla qürur duyuruq, fəxr edirik".

**Sücayət Mehti**

# ABŞ neftin qiymətinin ucuzlaşmasına çalışır

## İran və Səudiyyə Ərəbistanı dünya bazarlarında Rusiya neftini əvəz edə bilər

**İsmayıl Qocayev**



**"Neftin qiyməti artmaqda davam edir. Bu, bir çox ölkə üçün ciddi problem yaradıb. Rusiya neftindən imtina edən dövlətlər alternativ yollar axtarırlar".**

**Bu sözləri "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib.**

Analitik bildirib ki, dünya bazarlarına daha çox neftin çıxarılmasını təmin etmək üçün ABŞ Venesuellaya qarşı sanksiyaları yumşaldıb: "Venesuellanın dövlət neft şirkətləri neft sata bilərlər. Dünyanın ən çox neft istehsal edən ölkələrindən biri də İrandır. Vaşinqtonda İrana qarşı da sanksiyaların yumşaldılması mövzusu müzakirə olunur. Bunun üçün İranla nüvə sazişinin imzalanması vacib deyil. Çünki bu sazişin yaxın zamanda imzalanması problematikdir. Nüvə sazişi ilə bağlı danışıqlar nəticə vermir. Tehran İrana qarşı mövcud olan bütün sanksiyaların ortadan qaldırılmasını tələb edir. Misal üçün, Tehran İslam Keşikçiləri Korpusunun sanksiya siyahısından çıxarılmasını tələb edir. Vaşinqton isə ancaq nüvə proqramıyla bağlı sanksiyaları yumşalda bilər, İrana qarşı digər sanksiyalardan imtina etməyəcək. Buna görə də indiki şərtlər altında Vaşinqtonla Tehran arasında razılaşma problematikdir. Buna baxmayaraq, Amerikaya neft, İrana isə neftin satışından gəlir əldə etmək lazımdır.

İranda sosial vəziyyət mürəkkəbdir. Əhalinin gəlirləri azalıb, bəzi yerlərdə maaşların verilməsi gecikir ki, bu da əhali arasında narazılığa səbəb olur. İran neftini satmağa imkan əldə edərsə, sosial və iqtisadi problemlərinin həllini sürətləndirə bilər. Hazırda İran öz neftini ucuz qiymətə Çinə və Hindistana satır. Bu isə çox böyük gəlir əldə etməyə imkan vermir. Çin neft əvəzinə İrana məhsullar ixrac edir. İrana isə valyuta lazımdır".

Ekspert qeyd edib ki, İran və Səudiyyə Ərəbistanı dünya bazarlarında Rusiya neftini əvəz edə bilər: "Vaşinqton Ər-Riyadla danışıqlar aparır ki, Səudiyyə Ərəbistanı dünya bazarlarına daha çox neft çıxarsın. İran da bu prosesə qoşularsa neftə olan tələbat azalar və qiymətlət sabitləşər. Neftin qiymətlərinin sabitləşməsi bir çox ölkənin maraqlarına cavab verir. Neft istehsal edən ölkələr də neftin qiymətinin sabitləşməsini istəyirlər. Çünki neftin qiyməti yüksək olduğu kimi qəfil ucuzlaşa da bilər. Bu isə neft istehsal edən ölkələrin gəlirlərini azaldacaq və həmin dövlətlər büdcələrini dəyişdirmək məcburiyyətində qalacaqlar".

# Rus bölməsi məktəblərinin keyfiyyəti aşağı düşüb

## Emin Əmrullayev: "Bunun özü cəmiyyət, təhsil ictimaiyyəti üçün bir sualdır"

**"Oğlanların təhsil keyfiyyəti kifayət qədər ciddi problemə çevrilir". Bunu təhsil naziri Emin Əmrullayev "Abituriyent" jurnalının 12-ci buraxılışının təqdimatı zamanı deyib. Onun sözlərinə görə, bu məsələyə yarış kimi baxmaq olmaz. Nazir bildirib ki, daimi danışdığımız məsələlərdən biri qızların təhsilidir. Amma oğlanların təhsil keyfiyyəti kifayət qədər ciddi problemə çevrilir:**




"Qızların təhsili çox vacibdir, çünki bu, anaların təhsilidir. Bu isə uzun müddətdə təhsilin keyfiyyəti deməkdir. Bütün fənlərdə qızlar oğlanlardan yüksək nəticə göstərir. Əvvəl riyaziyyatdan ənənəvi olaraq oğlanlardan daha üstün idi, amma bu il nəticələrə baxdım, demək olar ki, rəqəm eynidir".

**Emin Əmrullayev deyib ki, Dövlət İmtahan Mərkəzinin təhlilləri də göstərir ki, ali təhsilə əlçatanlıq artıb:** "Bu, yaxşı xəbərdir. Lakin kifayət qədər də riskli tərəfləri var. DİM-in təhlillərindən də görmək olur ki, 16-17 yaşı olanların təxminən 50 faizi heç bir peşə əldə etmir. Nəzərə alsaq ki, hər il ölkədə təxminən 150 min uşaq doğulur. Deməli, 75 şəxsin heç bir formal peşəsi olmur". Nazir deyib ki, bu il ali təhsil müəssisələrinə qəbul proqnozu 50 mindən artıqdır.

Təhsil naziri vurğulayıb ki, Azərbaycanda rus bölməsi məktəblərinin keyfiyyəti Azərbaycan bölməsindən əsaslı şəkildə aşağıdır. O qeyd edib ki, rus bölməsinin nəticələri getdikcə aşağı düşür: "Eyni məktəbi götürüb sektorlar arasında nəticəyə baxa bilərik. Məsələn, Z.Əliyeva adına lisey riyaziyyat fənni baxımından ən yaxşı nəticə göstərən məktəblərdən biridir. Bu təhsil müəssisəsində Azərbaycan bölməsi üzrə nəticə 75, rus bölməsi üzrə isə 68-dir. Ən yaxşı rus bölməsi məktəbi Azərbaycan bölməsi üzrə top 15-ə belə düşmür. Bunun özü cəmiyyət, təhsil ictimaiyyəti üçün bir sualdır. Bu baxımdan bizim bölmələrimiz və təhsilin keyfiyyəti tədqiqat mövzusu ola bilər".

**İsmayıl**

# Proses şəffaf aparılır

## Azərbaycanda əlilliyin təyin edilməsi avtomatlaşdırılıb



Çimnaz Şahlar

**Hərbçilərin əlilliyinin qiymətləndirilməsi və reabilitasiyası işlərinə, əlillik sahəsində tətbiq olunacaq yeni meyarlara dair mətbuat konfransı keçirilib. Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin sədri Anar Bayramov qeyd edilən istiqamətlərdə görülmüş işləri diqqətə çatdırıb.**

O bildirib ki, son 3 ildə 160 mindən çox şəxsə, postmüharibə dövründə isə 3 min qaziyə əlillik təyin edilib. Konfrans zamanı qeyd olunub ki, müharibədən sonra aidiyyəti qurumların nümayəndələrindən ibarət Komissiya müharibədə yaralanmış qazilərin əlilliyinin qiymətləndirilməsi üçün operativ sənədləşdirmə işlərini yerinə yetirib. Yekun mərhələ kimi, Agentlik müalicə müddəti başa çatmış qazilərin əyani müayinələr əsasında əlilliyinin qiymətləndirilməsini aparıb, artıq 3 min qaziyə əlillik və sosial ödənişlər təyin olunub.

2021-ci il və cari il ərzində 91 min şəxsə əlillik təyin edilib. Təkcə bu ilin 5 ayında əvvəlki illərin müvafiq dövrləri ilə müqayisədə 2-3 dəfə çox - 30 min şəxsə əlillik təyin edilib. Qazilərin keyfiyyətli reabilitasiya xidmətləri ilə təminatında Nazirliyin son illərdə müasir tələblərə uyğun qurularaq təchiz olunmuş 12 reabilitasiya müəssisəsi bu sahədə mühüm potensial rolunu oynayır. Mərkəzlərdə postmüharibə dövründə 2500 qaziyə səmərəli reabilitasiya və sosial-psixoloji xidmətlər göstərilib.

44 günlük Vətən müharibəsində yaralanaraq əzalarını itirmiş 200 qazinin, ümumilikdə 300 müharibə əlilinin yüksək texnologiyalı son nəsil protezlərlə təminatı proqramı uğurla icra olunub. Postmüharibə dövründə 1400-dən çox müharibə əlili 19,3 mindən çox reabilitasiya vasitəsi ilə təmin olunub.

**Bu sahədə aparılan işləri yüksək qiymətləndirən Millət vəkili Aydın Mirzəzadə "Şərq"ə bildirib ki, sosial xidmət dövlətin əsas vəzifələrindən biridir:**

"Azərbaycan müstəqillik qazandıqdan sonra dövlət bu istiqaməti diqqətdə saxlayıb. Aydın məsələdir ki, əlillik ilk növbədə əmək fəaliyyəti məhdud olan və yaxud heç olmayan insanlara verilir. Yəni öncə özlərini maddi cəhətdən təmin edə bilməyənlər üçün kateqoriyalara bölünür. Eyni zamanda müəyyən edilmiş standartlar var. Həmin standartların zaman-zaman Azərbaycanda qəbul edilməsi həyata keçirilir".

Deputatın sözlərinə görə, ölkədə əlilliyin təyin edilməsi avtomatlaşdırılıb:

"Əvvəlki kimi şəxsi təmas məsələsi yoxdur. Bütün işlər şəffaf şəkildə həyata keçirilir. Nazirlikdən də mütəmadi olaraq nə qədər insana əlilliyin verilməsi, hansı kateqoriyanın əlilliyi alması barəsində məlumatlar yayır. Eyni zamanda Vətən müharibəsində sağlamlığını itirmiş şəxslərin əlilliyinin təyin edilməsi prosesi də davam edir".



# İrəvan Arutyunyanı həbs etməyəcək

## Onu Rusiya sülhməramlı qüvvələri mühafizə edir

**"Ermənistan baş prokurorunun qanunsuz olaraq Azərbaycanın ərazisinə keçərək Xankəndinə gəlməsi və separatçılarla görüşü İrəvanın Azərbaycanın ərazi bütövlüyünü tanımadığını göstərir".**

*Bunu "Şərq"ə politoloq Məhəmməd Əsədullazadə deyib. Ekspert bildirib ki, Rusiya sülhməramlıları bu səfərin qarşısını almalı idi:* "Ermənistan Baş naziri Nikol Paşinyanın baş prokuroru Xankəndinə göndərməsi separatçılarla bağlı görülən tədbir kimi dəyərləndirilə bilər. Aydındır ki, separatçılar Paşinyana qarşıdır və onun əleyhinə mitinqlər təşkil edirlər. Təbii ki, rəsmi İrəvanın separatçı Araik Arutyunyanı həbs etməsi mümkün deyil. Onu Rusiya sülhməramlı qüvvələri mühafizə edir. Arutyunyan İrəvanın təlimatı ilə deyil, sülhməramlıların komandiri Volkovun tapşırığı ilə hərəkət edir".

**M.Əsədullazadə bildirib ki, Laçın dəhlizindən kənar çəkilən yeni yol tamamlanandan sonra Ermənistandan qanunsuz səfərlərin qarşısı alınmalıdır:** "Yeni Laçın dəhlizi ilə bağlı Rusiya və Azərbaycan arasında problemlərin ortaya çıxması mümkündür. Çünki Rusiya keçid yolunda Azərbaycanın nəzarətini qəbul etmək istəmir. Türkiyə ilə birgə kordinasiyalı fəaliyyət Moskvanın destruiktiv siyasətinin qarşısını alacaq".

**İsmayıl**




# Ərdoğan anlatdı

## Ankara qurulan tələlərdən xəbərdardır

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Yunanıstana sərt xəbərdarlıq edib. Ərdoğan bildirib ki, Türkiyə beynəlxalq sazişlərdən yararlanacaq və adaların silahlanması ilə bağlı beynəlxalq müqavilələrin ona verdiyi səlahiyyətlərdən istifadə etməkdən çəkinməyəcək:**

"Yunanıstanı bir daha xəbərdar edirik ki, bir əsr əvvəl olduğu kimi xəyallardan, ritorikadan və peşmanlıqla nəticələnəcək hərəkətlərdən uzaq dursun, ağlını başına yığsın. Türkiyə heç kimin haqqını və hüququnu pozmur, lakin öz haqqını və hüququnu da heç kimə verməz. Aralıq dənizinin şərqində ölkəmizin materik hissəsindən 2 kilometrdən az, Yunanıstandan isə 600 kilometrdən çox məsafədə yerləşən Meis adasına 40 min kilometrlik dəniz yurisdiksiyası tələbinin mənasını beynəlxalq ictimaiyyətin ixtiyarına buraxırıq". Türkiyə lideri bildirib ki, qeyri-hərbi statuslu adalardan müxtəlif təlimlərdə istifadə etməyə çalışmağın, NATO və üçüncü tərəf ölkələrini bu qanunsuzluğa alət etmək təşəbbüsünün sonu fəlakətlə nəticələnəcək: "Yunanıstan Avropa Birliyinin üzvü olsa da, Birliyin dəyərlərinə, ümumbəşəri insan haqlarına və beynəlxalq müqavilələrə məhəl qoymayaraq, Qərbi Trakya, Rodos və Kosda yaşayan türk azlığa təzyiqlərini davam etdirir".

> "Yunanıstan üzərindən Türkiyəyə qarşı geniş çaplı əməliyyat hazırlığı görülür"

**Beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə bildirib ki, bölgədə silahlı toqquşmalara səbəb olacaq hadisələr baş verə bilər.** Analitik qeyd edib ki, Yunanıstanı müharibəyə sövq edən, daha doğrusu, fəlakətə sürükləyən tərəf isə Fransadır: "Əlbəttə, Afinanın qızışdırılmasında Amerika Birləşmiş Ştatlarının da rolu az deyil. Türkiyənin diqqətinin Yunanıstana, Egey dənizi məsələsinə cəlb olunmasının səbəbi Ankaranın hazırda yürütdüyü Rusiyayönlü siyasət və Suriyanın şimalında aparılacaq hərbi əməliyyatlardır. Qərb çalışır ki, Türkiyəni Egey dənizi bölgəsində dəniz milində geri durmağa, yəni 6 və 12 mil məsələsini qəbul etməyə məcbur buraxsın. Suriyadakı əməliyyatları əngəlləmək və Şimalı Kipr Türk Cümhuriyyəti məsələsini yenidən gündəmə gətirmək məqsədi güdürlər. Yunanıstan üzərindən Türkiyəyə qarşı geniş çaplı əməliyyat hazırlığı görülür. Bütün bunlara Ərdoğanın sərt şəkildə təpki verməsi Türkiyənin prosesləri çözdüyünü, qurulan tələləri əvvəlcədən gördüyünü deməyə əsas verir. Hətta Türkiyənin hərbi müstəvidə cavab verəcəyi də istisna deyil. Ancaq inanmıram ki, Afina xəbərdarlığı nəzərə alsın. Məncə, gərginliyi daha da körükləyəcəklər".

**İsmayıl Qocayev**

# Şuşa adı ilə alver edirlər, möhtəkirlik edirlər

## Kərim Kərimli: "Bu şəhərdə eyni vaxtda 500 nəfər eyni küçə ilə addımlaya bilməz ey..."



> "Xahiş edirəm, məni düzgün başa düşün, Bakıda yaşayan birinin Şuşaya şuşalıdan öncə getməyinin izahı ancaq bu ola bilər ki, bacarıqlıyam, imkanlıyam, pulluyam, gedirəm. Belə olmaz axı"

**Şuşaya aldadıcı səfərlərin təşkili təəssüf doğurur. Bir müddət öncə Bakıda məktəb kollektivi Şuşaya səfər adı ilə aldadılmışdı. Şuşa şəhəri 1 saylı tam orta məktəbin müəllim heyətinə özünü "Şimşək Turizm" şirkətinin rəhbəri kimi təqdim edən Əlizamin Canızadə Şuşaya tur təşkil etdiyini bildirib.**

Səfərə getmək üçün isə 70 nəfər müraciət edib və hər biri ona 22 manat ödəyib. Təyin olunan gündə və vaxtda kollektiv məktəb binası önünə toplaşsa da "Şuşa avtobusu" gəlməyib və ziyarətçilər aldadıldıqlarını nəhayət, başa düşüblər. Məktəb rəhbərliyi polisə şikayət edib. Hazırda araşdırma aparılır.

Bir yandan da alimlər hansısa fırıldaqçının toruna düşüb. Bir qrup alimə Şuşaya səfər təşkil etmək adı altında dələduzluq edildiyi iddia olunur. Bu barədə tarixçi-alim Arif Gürşadoğlu öz "Facebook" hesabında bildirib. A.Gürşadoğlu qeyd edib ki, Şuşa adına çox saxtakarlıqlar olub, ancaq beləsi hələ olmamışdı: "Demək, Əlvan Cəfərov adlı bir nəfər - "İksad Azərbaycan"ın baş koordinatoru Şuşada konfrans keçiriləcəyi vədi ilə qeydiyyatdan keçmiş 470 nəfər alimi Şuşa adıyla aldadıb. Konfransa qatılanların az olduğunu bilərək belə bir çirkin oyun qurulub. Bəlkə də Əlvan Cəfərovluq deyil, ancaq istənilən halda bir çirkin oyun qurulub. Sabah yola çıxacağımız ərəfədə bəlli olub ki, cəmi 100 nəfər seçilmiş alim bu gün gediblər. Kim seçib, necə seçib, bu, başqa sualdır. Və bu sualların da cavabı aydınlaşacaq. Gedənlərin içində bir ailədən 4 nəfər və alim olmayanlar da var. İndi də yazıb ki, heç kim ödənişini geri istəməsin! Xeyirdimi? Hər adamdan 70 manat almaq və onu qaytarmamaq bu qədər asandırmı? 370 nəfərdən 70 manat alanda 25.900 manat pul edir". Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, həmin faktla bağlı hazırda Yasamal Rayon Polis İdarəsində araşdırma aparılır, zərərçəkənlərin idarəyə müraciət etməsi xahiş edilir.

Azərbaycan Milli Elmlər Akademiyası da bir qrup alimin Şuşaya getmək adı ilə aldadılması məsələsinə münasibət bildirib. AMEA-dan verilən xəbərə görə, sosial şəbəkələrdə və bəzi xəbər saytlarında haqqında danışılan Şuşa şəhərinə səfərin və onun təşkilatçılarının keçirdikləri elmi konfransın AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli ilə, Akademiyanın Humanitar Elmlər Bölməsi və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə heç bir əlaqəsi yoxdur.

İnsanları niyə Şuşa adıyla aldadırlar? Səbəb məlumdur, bunun adı insanlarımızın Şuşa həsrətindən, Şuşa həssaslığından sui-istifadə və gəlir əldə etmək hərisliyidir. Lakin Şuşa avtobusuna bilet satışında problemlər yaşandığı da məlumdur. Hətta Şuşa avtobusuna bilet satışı sosial şəbəkədə sosial evlərin işıq sürəti ilə satışıyla "müqayisə" də edilir. Necə ki, sosial evlər 5 saniyədə satılıb qurtardı, Şuşa avtobusuna biletlərin satışı başlayan andaca bitir. Elektron bilet satışı bunun üçündür ki, insanlar əziyyət çəksin? Bu cür halların qarşısını almaq olar, yəqin ki. Bəs boşluq hardadır?

**Yazıçı-publisist, şuşalı Kərim Kərimli problemi yaranma səbəblərini göstərdi:**

- Keçmişdənqalma fraza var; hər şeyi kadrlar həll edir. Həmin fraza bu gün də aktuallığını saxlayır. Azərbaycan hökumətinin Şuşa ilə bağlı etibarına məmurlar xəyanət edir. Və bununla təkcə dövlətə, hökumətə yox, əsgərlərimizin əlbəyaxa döyüşlə azad etdiyi, şəhidlərimizin qanı ilə suvarılmış Şuşaya, Şuşa torpağına da xəyanət edirlər. Şuşa adıyla alver edirlər, möhtəkirlik edirlər. Bu da xəyanətin başqa bir üzüdür. Şuşa ilə bağlı işlər elə kadrlara həvalə edilməlidir ki, onlar Şuşa adını həyatlarından üstün tutsunlar. Necə ki, şəhidlərimiz bunu edib. Fırıldaqçılıq, möhtəkirlik o zaman ayaq açır ki, onun üçün əlverişli, münbit şərait formalaşır. Elektron bilet satışı ona görə təşkil edildi ki, möhtəkirliyə imkan yaranmasın. Amma gördüyümüz kimi bu sahəyə də müdaxilə edənlər var. Bilirsiz ki, "Yolumuz Qarabağadır" saytı yaradılıb. Bu sayta daxil olmaqla Şuşaya, Ağdama avtobus bileti sifariş etmək lazımdır. Amma inandırıram sizi, heç 2 ay irəliyə də bilet sifariş etmək olmur. Nə zaman sayta daxil olursan, qeyd edilir ki, biletlər satılıb qurtarıb. Bilet satışı olan gün sayta daxil olmağını görürsən, 5 saniyədə bilet satışı bitir. Bu, necə olur?!. Necə olur ki, hansısa turizm şirkəti 150 bileti mənimsəyir? Hansı hüquqla? Turizm şirkətlərinə əlahiddə hüquq verilib ki, yalnız onlar Şuşa biletlərinə sahiblənə bilər? Nə fırıldaq edirlərsə, biletləri mənimsəyirlər. Elmin nailiyyətlərindən saxtakarlıq, fırıldaqçılıq üçün istifadə edilir. 30 il Şuşa həsrətiylə yaşayan, bağrı qan insanlar var, Şuşaya hələ də həsrətdir. Bu insanların haqqına təcavüz etmək ən böyük günahdır, ən böyük cinayətdir. 30 illik Şuşa həsrətini bu cür çirkin alverlə gözdən salırlar. Vallah, səmimi deyirəm, anlayıram, hamıya pul lazımdır, hökumətə də, şirkətlərə də, ayrı-ayrı şəxslərə də. Ancaq bu qədər alçalmaq olmaz da! Bilet satışı, Şuşa səfərləri ilə bağlı dövlət orqanları ciddi məşğul olmalıdır, fırıldaqçılar, möhtəkirlər cəzalandırılmalıdır.



> "Hər tədbiri Şuşada keçirməyə çalışmaq, buna cəhd etmək düzgün deyil. Bu şəhərdə xüsusi tədbirlər keçirilməlidir"

**K.Kərimli bildirdi ki, ola bilsin, 470 alimi eyni vaxtda - birdəfəyə Şuşaya aparmaq mümkün olmayıb. Ona görə gedə bilməyiblər. Amma istənilən halda iş düzgün təşkil edilməyib. Alimləri bu vəziyyətə salmaq olmaz:**

- Məsələnin başqa bir tərəfinə toxunmaq istəyirəm. Xahiş edirəm məni düzgün başa düşün, oxucular da düzgün başa düşsün. Demirəm, Şuşa əlahiddə bir yerdir (hərçənd əlahiddə adlandırmaq da olar, kimsə etiraz etməz, bizcə - M.R.) , amma hər tədbiri Şuşada keçirməyə çalışmaq, buna cəhd etmək də düzgün deyil. Şuşa cənab Prezident tərəfindən "Mədəniyyət paytaxtı" elan edilib. Şuşa, təkcə Azərbaycanın deyil, dünyanın mədəniyyət paytaxtı statusunda bir şəhərdir. Bu şəhərdə xüsusi tədbirlər keçirilməlidir. Məsələn, "Xarıbülbül" festivalı, Muğam festivalı, Dünya azərbaycanlılarının qurultayı və sair böyük, iri həcmli, dünya dövlətlərindən nümayəndələrin qatılacağı tədbirlər. Yoxsa ki, hə, ad günümdü, 3-5 dostumla Şuşada qeyd edək, təfəkkürü ilə çıxış edilsə, bu, mərhum şairimiz Əli Kərimin məşhur "Gözəl qız, sən saf susan, İki qəlb arzususan. Mənsə səni sevirəm susuzluğun od vurub köz kimi yandırdığı dodaq su sevən kimi. O isə səni sevir..." şeirinin motivi olacaq. Elmi konfransları başqa bölgələrdə də keçirmək olar. O qədər gözəl, səfalı yerlər var ki! Şuşada eyni vaxtda 500 nəfər eyni küçə ilə addımlaya bilməz ey... Bu qədər insanı toplayıb ora aparmaq bu qədər vacib idi ki?!. Bilirsiz, həmin o şeirdə olduğu kimi, indi Şuşaya gedənlər də 2 qismə bölünür: bir qisim şəhid balalarını, valideynlərinin, əcdadlarının qəbirlərini, evini, ocağını ziyarətə gedənlərdi, bir qisim də Cıdır düzündə şəkil çəkdirib sosial şəbəkədə paylaşanlar. Şuşa erməni separatçılarına, erməni cəlladlarına elə-belə təslim olmamışdı. Şuşalılar nə qədər şəhid verib şəhərləri uğrunda, nə qədər Vətən qazisi var bu şəhərin. Nə qədər köçkünü və küskünü. 1992-ci il yanvarın 26-da Daşaltı əməliyyatında itkilər oldu, 2 gün sonra Şuşa səmasında vertolyotumuz vuruldu. Şuşalılar bir gecədə 40 tabut düzəltdilər. 40 nəfər dəfn edildi bir gündə. O şəhid ailələrinin mənəvi haqqı çatır bu gün Şuşanı görməyə, şəhid qəbirlərini ziyarət etməyə. Belə insanlar üçün istisnalar olmalıdır. Sizə bir misal çəkim. Həmin vurulan vertolyotda o zaman Şuşa rayon icra hakimiyyətində hüquqşünas işləyən Şahin Abbasov, həyat yoldaşı və qızı da vardı. 3-ü də şəhid oldular. 2 oğul övladları isə sağ qaldı. Şahin müəlimin oğlu Elman epilepsiya xəstəsidir. Mənə müraciət etdi ki, Şuşaya getmək istəyir. Mən ona Prezidentin Şuşa şəhəri üzrə xüsusi nümayəndəsi Aydın Kərimova müraciət etməyi məsləhət gördüm. Sağ olsun, Aydın müəllim, Elman Abbasovun Şuşa səfərinə icazə verib, şərait yaratdı. Şuşanı ziyarət edib qayıdandan sonra Elman mənə zəng edib dedi ki, ömrünün ən xoşbəxt gününü yaşadı. Hətta onu xəstəliyi səbəbindən 1 gecə Şuşada qonaq saxlayıblar ki, gecə yola çıxmasın. Yəni bu cür insanlar üçün istisnalar olmalıdır. Hesab edirəm ki, şuşalılar üçün 30-40 faiz kvota ayırmaq olar. Ya da xüsusi avtobus reysləri olsun, məhz şuşalılar üçün. Xahiş edirəm, məni düzgün başa düşün, Bakıda yaşayan birinin Şuşaya şuşalıdan öncə getməyinin izahı ancaq bu ola bilər ki, bacarıqlıyam, imkanlıyam, pulluyam, gedirəm. Belə olmaz axı. Hətta mən təklif etmişəm ki, 100 yaşdan aşağı şuşalıların siyahısı tutulsun, bu ahıl, yaşlı insanları hissə-hissə Şuşaya aparaq, qoy el-obalarını görsünlər, Vətən, torpaq həsrəti bitsin. "Şuşalılar" qrupunda rəhmətə gedənlər barədə məlumat verilir. Baxırsan, kimsə rəhmətə gedir. Anlayırsan ki, hə, bu da Şuşanı görmədən dünyadan köçdü. Bu, ağır dərddir...

**Məlahət Rzayeva**



# Qarabağa qanunsuz səfərlər sülhə əngəldir

## Hadisələr rus sülhməramlıların bölgədə pozuculuq fəaliyyəti ilə məşğul olduqlarını növbəti dəfə təsdiqləyir

**"Rusiya Cənubi Qafqazda yeni savaş törətməyə çalışır, "qırmızı cizgiləri" aşır, regional xaosa səbəb ola biləcək təxribatlara əl atır". Bu barədə siyasi şərhçi Elçin Xalidbəyli deyib. Analitik bildirib ki, Rusiya Xarici işlər naziri Sergey Lavrovun Ermənistanda gündəmə gətirdiyi "delimitasiya anlayışı" diplomatik və geopolitik skandaldır:**

"Türkiyədən birbaşa Ermənistana səfər edən Rusiya Xarici işlər naziri Sergey Lavrov İrəvanda erməni həmkarı Ararat Mirzoyanla görüşdən sonrakı mətbuat konfransında Azərbaycanın əleyhinə fikirlər səsləndirib. Diplomata yaraşmayan mövqedən çıxış edən Lavrov bildirib ki, Fərruxdakı hadisənin nizamlanması Qarabağdakı Rusiya sülhməramlı qüvvələrinin prioritetlərindən biridir. Rusiya xarici işlər nazirinin bu açıqlaması əsl geopolitik skandaldır. Kreml rəsmisinin bu açıqlaması bütün "qırmızı cizgilər"in aşılması anlamına gəlir. Rusiya sülhməramlı qüvvələri Azərbaycanın Xankəndi və ətraf bölgəsində müvəqqəti dislokasiya olunublar. Üstəlik, Rusiya sülhməramlı qüvvələrinin statusu hələlik ratifikasiya edilməyib. Və əslində, beynəlxalq hüquq normaları baxımından, bölgədə qeyri-qanuni olaraq yerləşdiriliblər. Ona görə də Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Xankəndi və ətraf bölgədə Rusiya sülhməramlı qüvvələrinin hansısa prioritetləri ola bilməz. Əgər üçtərəfli anlaşmalar üzrə öhdəliklər nəzərdə tutulursa, onda Kreml Rusiya sülhməramlı qüvvələrinin həmin sənədin tələblərini kobud şəkildə pozmaqda davam etdiklərini etiraf etməlidir. Və keçmişə dayalı ciddi araşdırma aparmadan belə, bunu sübut etmək qətiyyən çətin deyil".

**Politoloq qeyd edib ki, son bir neçə gün ərzində Ermənistanın baş prokuroru Artur Davtyan və xüsusi vacib məsələlər üzrə səfiri Edmond Manukyan Azərbaycanın Xankəndi şəhərinə qanunsuz səfər ediblər:** "Üçtərəfli anlaşmalara görə, Laçın dəhlizinə nəzarət edən rus sülhməramlılar isə rəsmi Bakının razılığı olmadan bu iki erməni rəsmi şəxsin bölgəyə girişinə imkan verib. Bu, rus sülhməramlıların bölgədə pozuculuq fəaliyyəti ilə məşğul olduqlarını növbəti dəfə təsdiqləyir.

Digər tərəfdən, Rusiya xarici işlər nazirinin delimitasiya və demarkasiya prosesi ilə bağlı anlayışı da yanlışdır. Çünki bu proses yalnız Azərbaycan və Ermənistan sərhədlərinin dəqiqləşdirilməsini nəzərdə tutur. Xankəndi və ətraf bölgə isə Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Azərbaycanın tərkib hissəsi olan bir ərazi ilə bağlı delimitasiyadan danışmaq sadəcə, beynəlxalq hüquq normalarından uzaqlaşmaq deyil, həm də bölgədə yeni savaşın əsasını qoymaq, bunun üçün süni səbəblər yaratmaq cəhdidir. Bütün bunlar onu göstərir ki, Rusiya Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında hər hansı müsbət irəliləyişin olmasını istəmir. Əksinə, Kreml əlindən gələn hər şeyi edir ki, iki ölkə arasında sülh sazişinin hazırlanması prosesi pozulsun. Ardınca, Azərbaycan və Ermənistan arasında yeni savaşın baş verməsi mümkün olsun. Belə anlaşılır ki, Rusiyanın vasitəçiliyi yalnız prosesin pozulmasına indeksləşib. Kreml Cənubi Qafqazda sülh və əmin-amanlıq dövrünün başlanmasında maraqlı deyil. Bəzi əlamətlərə əsasən, Rusiyanın hətta Cənubi Qafqazda yeni müharibə senariləri üzərində işlədiyini də düşünmək olar".

**İsmayıl**

# Putin Pyotrun adını çəkməklə Qərbə mesaj verir

## Prezident Rusiyanın əvvəlki hegemonluğunu qaytarmağa çalışır



**Rusiya Prezidenti Vladimir Putin özünü imperator I Pyotrla müqayisə edib. Putin gənc sahibkarlarla görüşündə deyib ki, Rusiya imperatoru I Pyotr 1700-1722-ci il Şimal müharibələrində İsveçdən torpaq qoparmayıb. Onun sözlərinə görə, I Pyotr rus torpaqlarını qaytarıb və möhkəmləndirib: "I Pyotrun 350 illiyinə həsr olunmuş sərgidə idik. Demək olar ki, heç nə dəyişməyib.**

I Pyotr 21 il Şimal müharibəsində vuruşub. Deyəsən, İsveçlə döyüşüb. Əvvəl uğursuz olsa da, sonradan qayıdıb gücləndi. Görünür, bizim də qismətimizə düşüb ki, qayıdaq və güclənək". Putin deyib ki, "indi bizim taleyimizə də torpaqları qaytarmaq və möhkəmləndirmək düşüb". Bəyan edib ki, I Pyotrun qəsb etdiyi torpaqlarda əslər boyu fin-uqor xalqları ilə yanaşı slavyanlar da yaşayıblar. O əlavə edib ki, bu torpaqlar həmişə rus dövlətinin nəzarətində olub. Putin misal olaraq əsası 1703-cü ildə I Pyotr tərəfindən qoyulmuş Sankt-Peterburq şəhərindən danışıb. O deyib ki, əvvəlcə Avropanın ölkələri bu əraziləri Rusiya ərazisi kimi tanımırdılar. Məlumat üçün qeyd edək ki, Finlandiya Prezidenti Sauli Niinistö rusiyalı həmkarı Vladimir Putinin Böyük Şimal müharibəsi ilə bağlı sözlərini eşitdikdən sonra İsveç kralı ilə şam yeməyini tələsik ləğv edib. Onu da xatırladaq ki, Ukraynada Rusiya qoşunları tərəfindən işğal olunmuş Xerson və Zaporojye vilayətlərinə Moskva tərəfindən təyin edilmiş başçılar bu ərazilərin Rusiyaya birləşdirilməsi üçün referenduma hazırlaşdıqlarını bildiriblər. Bu bəyanatlar Putin administrasiyası rəhbərinin birinci müavini Sergey Kiriyenkonun işğal olunmuş bölgəyə səfərindən sonra verilib.

**AĞ Partiya sədrinin müavini Əhəd Məmmədli "Şərq"ə bildirib ki, Rusiyaya uzun müddətdir rəhbərlik edən və militarist siyasət yeridən Vladimir Putinin I Pyotrdan misal gətirməsi, indiki prosesləri həmin dövrlə müqayisə etməsi təbiidir. Analitik qeyd edib ki, məhz I Pyotrun hakimiyyəti dövründə Rusiya çarlıqdan imperatorluğa çevrildi:** "Rusiyanın Avropaya qapılarını açan şəxs I Pyotrdur. Ona görə ruslar Pyotrla daim fəxr ediblər. Putin də Rusiyanın əvvəlki hegemonluğunu qaytarmağa çalışır. Pyotrdan çəkilən misallar əsas Qərbə mesaj xarakteri daşıyır. Pyotrun ən böyük müharibəsi İsveçlə olub və qalib gəlib. Osmanlı dövləti ilə də savaşlar olmuşdu, amma məğlubiyyətə uğramışdı. Putinin "İsveç torpaqları əvvəllər rusların, ora ruslar nəzarət edib" açıqlaması da doğru deyil. Rusiya dövləti olmayıb ki, hansısa ərazilərə nəzarət etsin. Həmin torpaqların hamısı türklərə məxsus Qızıl Orda dövlətinə məxsus idi. Rusiya məhz Qızıl Ordanın qalıqları üzərində dövlət kimi formalaşıb. Ruslar hər zaman olduğu kimi tarixi təhrif etməklə məşğuldur".

**İsmayıl Qocayev**

# ABŞ-ın Azərbaycanda sərmayəsi var

## Ona görə Vaşinqton sabitliyin pozulmasında maraqlı deyil

**"Qarabağ münaqişəsi zamanında ABŞ-ın Azərbaycan üzərində təzyiq alətləri yaratması üçün bir-sıra fəaliyyəti müşahidə edilirdi. Azərbaycanda isə hakim olmasa da, əsas fikir xətti bu idi - Qərb Azərbaycanda rəngli inqilab təşkil etmək və sabitliyi pozmaq istəyir".**



**Bu fikirləri "Şərq"ə açıqlamasında siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, hazırda Ağ Ev administrasiyası dünyaya baxış bucağını yox, yalnız onun üsulunu və icra tərzini dəyişdirib, çünki rəngli inqilablar ABŞ üçün əlavə xərclər yaratmışdı:** "İndi Azərbaycan-ABŞ münasibətlərinin prioritetlərini iqtisadi tellərlə əlaqələri möhkəmləndirmək təşkil edir. Bu da təhlükəsizlik sferasındakı əməkdaşlığa daha da irəliyə doğru format vermək ehtiyacını yaradır. ABŞ səfiri Örl Litzenberger həmin formulu təxmini bu cür dilə gətirib. ABŞ-ın Azərbaycanda sərmayəsi olduğundan burada sabitliyin pozulmasında maraqlı deyil. Cənab səfir Rusiya ilə Azərbaycanın münasibətlərinin inkişaf etməsini yaxşı hal kimi dəyərləndirdi. Amma əlavə etdi ki, Rusiya postsovet məkanı üçün təhdid yaratmaqda davam edir. Amerika hesab edir ki, gələcəkdə regionda hər hansı təhdid olacağı təqdirdə, təhlükə altına düşən ölkələri öz çətiri altında mühafizə etmək üçün mənbələr formalaşdırmaq lazımdır. Təhlükəsizlik müstəvisi üzərindəki ikitərəfli əməkdaşlığın yeni ideyalarla inkişaf etdirilməsi daha çox enerji resursları ilə əlaqədardır. Yəni Azərbaycanın yerləşdiyi coğrafi mövqe və iqtisadi-siyasi əhəmiyyəti Avropanın enerji xəritəsini dəyişmək üçün Qərbə əlverişli faydalar gətirir. Nəticə etibarı ilə Azərbaycanla ABŞ təhlükəsizlik fazasında yeni mexanizmlərin formalaşdırılmasını danışıqlar masasında müzakirə edir. Rusiya-Ukrayna müharibəsi fonunda Qərbin enerji resurslarına artan tələbatı Azərbaycana xarici investisiyaları təşviq edir. Amma investisiyanın həcminin artırılması, bir az da dəqiq desək, ABŞ-ın işğaldan azad edilmiş ərazilərə sərmayə yatırması ilə bağlı Bakı-Vaşinqton xəttində mübahisəli məqamlar var".

**İsmayıl Qocayev**

# İntihar xəbərlərinin sayını maksimum azaltmaq lazımdır

## Psixoloq: "Bununla özünəqəsdlərin qarşısını müəyyən qədər almaq olar"



**"Jurnalistlərimiz məsələlərə həssas yanaşmırlar. Daha çox reytinq toplamaq, diqqəti cəlb etmək üçün bu kimi xəbərlərə cazibədar, diqqətçəkən başlıqlar seçirlər"**

Sumqayıt şəhərində 15 yaşlı oğlan bıçaqlanıb. Məlumata görə, hadisə iyunun 8-i axşam saatlarında şəhərin 12-ci mikrorayon ərazisində yerləşən məcburi köçkün şəhərciyində qeydə alınıb. 2006-cı il təvəllüdlü Rzayev Ayxan Ramil oğlu şəxsi münasibətlər zəminində 2007-ci il təvəllüdlü Muxtarov Nihat Sənan oğlunun döş qəfəsinə bir bıçaq zərbəsi endirib. Şahidlərin "Report"a verdiyi məlumata görə, hadisə zamanı N.Muxtarovun anası oğlunun bıçaqlandığını görərək özünü yaşadığı binanın ikinci mərtəbəsindən yerə atıb. Hər iki şəxs xəstəxanaya yerləşdirilib. Hadisəni törətməkdə şübhəli bilinən A.Rzayev polis əməkdaşları tərəfindən saxlanılıb.

Bir ailə daxilində baş verən bu qətl və intihar hadisəsi cəmiyyətimizdə sürətlə yayılan aqressiyadan xəbər verir. Son zamanlar tez-tez rast gəldiyimiz intihar və cinayət hadisələri bunu deməyimizə əsas verir.

**Psixoloq Orxan Oruc da cəmiyyətimizdə bu kimi halların artmasından danışıb. O, "Şərq"ə açıqlamasında bildirib ki, initihar və cinayət kimi olayların artmasında mətbuatın rolu böyükdür:**

"Son dövrlər texnologiyanın inkişafı, qazancla bağlı anlayışın dəyişməsi, hər saniyəyə gələcəyimizi qurmaq üçün gəlir təminatı kimi baxmağımız insanlarda müəyyən aqressiya yaradır. Düşünürəm ki, aqressiyanın virus kimi yayılmasının səbəblərindən biri də məhz mətbuatdır. Bu tip xəbərlərin mütəmadi olaraq yayılması aqressiyanı, başqalarına qarşı fiziki xəsarət yetirməyi və yaxud psixoloji təzyiq göstərməyi insanların gözündə adiləşdirir. Bundan sonra artıq digərləri həmin aqressiyanı gizlətmək üçün özlərində məsuliyyət hiss etməməyə başlayırlar. Bir növ təqlid edirlər.

Bu gün kimsə mediada aqressiya ilə bağlı informasiyanı oxuyanda fikirləşmir ki, "bu yaxşı oldu" , "mən də aqressiyamı bu şəkildə ifadə edirəm" . Xeyr, sadəcə bu, şüuraltı modelə çevrilir. Bir müddətdən sonra insan özü bənzər situasiyaya düşdükdə həmin davranışı nümayiş etdirir. Sözsüz ki, bu davranışların bəziləri də özünü cinayət kimi göstərməyə başlayır".

*Problemdən çıxış yollarını göstərən psixoloqun fikrinə görə, bu tip xəbərlərin azaldılması ilə intiharların qarşısını müəyyən qədər almaq olar:*

"Jurnalistlərimiz məsələlərə həssas yanaşmırlar. Daha çox reytinq toplamaq, diqqəti cəlb etmək üçün bu kimi xəbərlərə cazibədar, diqqətçəkən başlıqlar seçirlər. Ona görə də gün keçdikcə, bu olaylar adi hal almağa başlayır. İlk növbədə jurnalistlər və bu sahəyə yaxın olan insanlar intihar xəbərlərinin qarşısını almalıdırlar. Jurnalistlər peşəkar yanaşaraq, kütləviləşmənin qarşısını alsa, sosial media istifadəçilərinin də belə xəbərləri yayması halı nisbətən azalar".

**Çimnaz Şahlar**

# Məktəblərdə "İnsan və cəmiyyət" fənninin tədrisinə ehtiyac var

## Sosioloq hesab edir ki, şagirdlərin maraq dairəsi hazırlanan proqramlarda mütləq nəzərə alınmalıdır




**Son dövrlər orta məktəblərdə yaşanan xoşagəlməz hallar, şagirdlərlə müəllimlər arasında yaşanan gərginliklər fonunda Azərbaycan məktəblərində "Psixologiya" və "İnsan və cəmiyyət" fənninin təkrar tədrisi təklif olunur. Qeyd edək ki, əvvəllər orta məktəblər arasında tədris olunan fənlər arasında "İnsan və cəmiyyət" də yer alırdı. Hazırda isə təhsil ocaqlarında bu fənnin tədrisi dayandırılıb.**

Təhsil eksperti Elçin Əfəndi isə hesab edir ki, orta ümumtəhsil müəssisələrində "İnsan və cəmiyyət" fənninin tədrisi ləğv olunduqdan sonra insanlıqdan da, normal cəmiyyət olmaqdan da uzaqlaşdıq. Təcili və təxirəsalınmaz addım kimi "Psixologiya" və "İnsan və cəmiyyət" fənlərinin tədrisinə razılıq verilməlidir.

Bir çox ekspertlər də o fikirdədir ki, orta məktəblərdə psixologiya dərslərinin keçirilməsi şagirdlərdə müsbət keyfiyyətlərin formalaşmasına xidmət edir.

**Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, millət vəkili Kamilə Əliyevanın "Şərq"ə verdiyi açıqlamada deyib ki, son zamanlar məktəblərdə şagirdlərin müəllim və sinif yoldaşlarına qarşı xoşagəlməz davranışlar nümayiş etdirməsi, belə halların sosial şəbəkələrdə operativ şəkildə yayılması təəssüf hissi yaradır.** Kütləvi informasiya vasitələri və sosial mediada orta məktəblərdə bir sıra xoşagəlməz halların baş verdiyinə dair videofaktlar görür və çox təəssüflənirik. Təhsil müəssisələrində belə hadisələrin baş verməsi çox yanlışdır. Şagirdlər arasında intihar hallarının artması kimi üzücü proseslər də var hələ. Orta məktəblərdə psixoloq ştatları olsa da, bu sahədə ciddi axsamalar var. Ölkə məktəblərində şagirdlər psixoloq dəstəyindən kifayət qədər yararlana bilmirlər. Halbuki, bütün dünyada məktəblilərə psixoloji yardım göstərilməsi, onların psixoloji sağlamlığının qorunması məsələsi aktualdır. Bizim məktəblərdə yaşanan xoşagəlməzliklərin əsas səbəbi məktəblərdə psixoloqların işinin bu günün tələblərinə cavab verməməsidir. Şagirdlərin psixoloqa olan ehtiyacı ödənilmədiyindən, psixoloji problemləri həllini tapmadığından aşağı siniflərdən tutmuş yuxarı siniflərə qədər uşaqlar arasında intiharlar artır. Bu səbəbdən məktəb psixoloqlarının işini düzgün istiqamətləndirən proqramın işlənilib hazırlanması və həmin proqram əsasında şagirdlərə psixoloji yardım göstərilməsi zəruridir".

*K.Əliyeva deyib ki, minlərlə şagirdi olan məktəblərdə cəmi bir psixoloq ştatı var. Şagird sayı çox olan məktəblərdə psixoloq ştatları artırılmalıdır. Ümumiyyətlə isə psixoloqların fəaliyyəti formal xarakter daşımamalıdır:* "Məktəbdə psixoloji xidmətin başlıca məqsədi uşaqların psixoloji sağlamlığını qorumaqla onların təhsil müvəffəqiyyətinin artırılması, əsas vəzifəsi isə şagirdlərin təlim və tərbiyəsi sahəsindəki çətinlikləri, onların şəxsi və intellektual inkişafındakı qüsurları aradan qaldırmaqla, təlim-tərbiyə sahəsində aparılan işin səmərəliliyini yüksəltməkdə, pedaqoji kollektivə köməklik göstərməkdən ibarətdir. Söhbət təbii ki, məktəblərdə işini bilən, ixtisaslı, işinin öhdəsindən gələn psixoloqlardan gedir".

Millət vəkili "Psixologiya" və "İnsan və cəmiyyət" fənlərinin orta məktəblərdə əsas dərs vəsaiti kimi tədrisinin məqsədəuyğun olmadığını deyib: "Amma yuxarı sinif şagirdləri üçün əlavə dərs kimi tədris oluna bilər. Sadəcə olaraq bu sahənin mütəxəssisləri ayda bir-iki dəfə şagirdlərlə görüşüb mühazirələr oxuya bilər. Ayrıca bir fənn kimi tədris edilməsinə ehtiyac yoxdur. Məktəblərdə psixoloji xidmətlər yaş kateqoriyalarına uyğun təşkil olunmalı, şagirdlər üçün hər yaş kateqoriyasını nəzərə alan psixoloji seminarlar təşkil edilə bilər".

**Sosioloq Ağasəlim Həsənov isə hesab edir ki, "İnsan və cəmiyyət" fənninin orta məktəb şagirdlərinə tədris olunması Azərbaycan üçün xüsusi aktuallıq kəsb edir. Ekspert eyni adla olmasa da bu və ya digər formada eyni mahiyyətli fənnin tədrisinin çox vacib olduğunu vurğulayıb:** "Təhsil institutu cəmiyyətin ailə, din və digər sosial institutları kimi əsas funksiyanı yerinə yetirir. Təhsil üzərinə düşən funksiyanı yerinə yetirə bilmədikcə çoxlu problemlər ortaya çıxır. Bu proses təkcə elmi biliklərin şagirdlərə çatdırılmasından ibarət deyil. Şagird yüksək nəticələr göstərə bilər, amma onun məktəbdə şəxsiyyət kimi formalaşdırılmasını şərtləndirən amillər var. İnsanın bu dünyada yeri və rolu, fərdin şəxsiyyət kimi formalaşması, fərdlərarası sosial münasibətlər, dünya görüşünün formalaşması həm də təhsil institutu ilə bağlıdır".

Sosioloq qeyd edib ki, cəmiyyət inkişaf etdikcə dəyərlər, baxışlar, ictimai fəaliyyətdə dəyişiklik baş verdikcə tədris proqramı günün tələblərinə uyğun dəyişir və yenilənir. "Bu gün virtual reallıq formalaşıb və tədris onlayn şəkildə keçirilir. Cəmiyyətdə virtual reallıq hakimdirsə, "İnsan və cəmiyyət" dərsliyi hazırlanarkən şagirdlərin maraq dairəsi nəzərə alınaraq bu mövzuda aktuallıq kəsb edən məqamları onların qavrayacağı səviyyədə proqrama daxil etmək olar".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# Yarımçıq talelər...

## Erkən nikahlar günümüzün ən böyük problemlərindən birinə çevrilib

**Ədliyyə Nazirliyi tərəfindən Ombudsman Aparatı ilə birgə "Ailə-nikah münasibətlərinin inkişafı: çağırışlar, islahatlar, perspektivlər" mövzusunda ictimai müzakirə keçirilib. Tədbirdə Ədliyyə Nazirliyi İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova, Ombudsman Səbinə Əliyeva, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova açılış nitqi ilə çıxış ediblər.**

İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva çıxışı zamanı son dövrlərdə məişət zorakılığı, erkən nikah və boşanmaların sayının çoxalmasından danışıb. O bildirib ki, Ombudsman Aparatına ötən dövr ərzində məişət zorakılığı, yetkinlik yaşına çatmayanlara qarşı zorakılıq, aliment məsələləri, erkən nikahlar, qəyyumluq və s. ilə bağlı müraciətlər daxil olub. Müraciətlər operativ qaydada araşdırılıb və nəzarətə götürülüb.

S.Əliyeva, həmçinin qeyd edib ki, son dövrlər erkən nikah və boşanmalarla bağlı artımların olması narahatedici haldır: "Bu istiqamətdə maarifləndirici tədbirlər keçirilir və bu fəaliyyət davam etdiriləlmidir. Bu işdə beynəlxalq təcrübədən də istifadə olunmalıdır".

Halbuki, biz hər zaman fəxrlə qeyd edirik ki, Azərbaycan xalqının unikal ailə modeli var. Ümumiyyətlə, xalqımızın ailə modeli nəinki Qərbdə, həm də Şərqdə unikal hesab olunan bir modeldir. Amma rəsmilərin də etirafından görünür ki, artıq ailə modelimizdə, adət-ənənələrimizdə müəyyən dəyişikliklərin olması fikri tez-tez səslənir.

Ailə məsələlərində rastlaşdığımız ciddi problemlərdən biri də erkən nikah problemləridir. Ekspertlərin fikrincə, qanunvericilikdə bu məsələyə baxılmalıdır. Çünki biz uşaq konvensiyasına qoşulmuşuqsa, orada uşaq yaşı 18 yaşına qədər göstərilir. Əgər ildə bir neçə min qız uşağı erkən yaşda nikaha girirsə, bu artıq ciddi problemdir. Xəstə doğulan uşaqların əksəriyyətini erkən yaşda ailə qurmuş anaların dünyaya gətirdiyi uşaqlar təşkil edir. İkinci bir tərəfdən, bu cür ailələrdə boşanma halları daha çox olur. Çünki uşaq yaşlarında artıq valideyn olan belə insanlar problemlərlə qarşılaşır. Bununla yanaşı, məişət zorakılığı problemi erkən yaşda qurulan ailələrdə daha çox nəzərə çarpır. Yaşı az olan qızlar öz hüquqlarını qoruya bilmirlər. Əslində isə erkən nikah - uşaqlığın əlindən alınması, reallaşmasına imkan verilməyən arzular, yarımçıq qalan təhsildir. Azyaşlı qızlarını zorla ərə verən valideynlər bir çox hallarda zəif, gücsüz çiyinlərə yüklədikləri böyük məsuliyyətin fərqində olmurlar.



Qeyd edək ki, erkən nikah hallarının baş verməsi bir çox hallarda ailələrdə münaqişələrə, boşanmalara və nəticədə sosial cəhətdən həssas qrupların sayının artmasına səbəb olur. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yeniyetmə və gənclərin erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair məlumatlılıq səviyyəsinin artırılmasına xüsusi önəm verir, mütəmadi olaraq bu sahədə maarifləndirmə tədbirləri həyata keçirir.

**Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu deyir ki, mövcud vəziyyəti aradan qaldırmaq üçün maarifləndirmə, bölgələrdə, ictimaiyyət arasında güclü təbliğat aparılmalıdır:** "XXI əsrdə yaşayırıq. Qızlarımıza yüksək təhsil almaq üçün imkan yaratmalıyıq. Qızlarımız da oğlanlarımızla bərabər inkişaf etməlidir. Bu gün qadın-kişi hüquqlarının bərabərliyindən danışırıq, qadınlara bərabər imkanlar, bərabər nəticələr verilməsini tələb edirik. Amma qızlarımız təhsildən yayınıb erkən nikaha gedirsə, bundan necə danışa bilərik.

### *Azərbaycanda insan alveri qurbanına çevrilənlərin 70 faizi məhz erkən nikaha cəlb olunan qızlardır*

Ona görə də biz bununla bağlı bütün istiqamətlərdə işimizi gücləndirməliyik. Bu hadisənin artmaması, qarşısının alınması üçün əlimizdən gələn hər bir şeyi - ictimai səfərbərlikdən, ictimai qınaqdan tutmuş qanunlarımızın təkmilləşməsinə və möhkəmlənməsinə qədər bütün işlər görülməlidir".

*N.Cəfəroğlunun sözlərinə görə, cəmiyyət bilməlidir ki, erkən nikah əslində ailənin təməlinin dağılmasıdır.* "Qız yetkin olanda daha ailəcanlı olur, ailənin, uşağın dəyərini dərk edir, öz məsuliyyətini anlayır. Yeniyetmə yaşında olan qızlar ailə üzvlərinin, valideynlərin təzyiqi əsasında özlərindən qat-qat böyük kişilərə ərə verilirlər. Bir müddət sonra xasiyyətləri tutmadıqda və ya zorakılığa məruz qaldıqda boşanmağa məcbur olurlar. Boşandıqda isə rəsmi nikahları olmadığından heç bir mülkiyyət hüququ əldə edə bilmirlər. Bu məsələ bu gün də ciddi problem olaraq qalır".

**"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova isə bildirib ki, erkən nikah qurbanları sığınacağa müraciət edənlər arasında da var. Onlar məişət zorakılığına məruz qalanlardır:** "Erkən nikah halları məişət zorakılığına gətirib çıxardır. Erkən nikaha daxil olan qızların rəsmi nikah yaşı çatmadığından onlar adətən iki və üçüncü uşaq dünyaya gətirdikdən sonra nikahı rəsmiləşdirirlər. Bizim sığınacaqda 14 yaşda erkən nikaha daxil olan qadın var ki, hazırda 5-ci uşağını dünyaya gətirib".

*M.Zeynalova bildirir ki, erkən nikaha cəlb olunan qızlar daha sonra müdafiəsiz insanlara çevrilirlər:* "Onlar uşaqlarla küçədə qalırlar. Ucuz işçi qüvvəsinə, insan alverinə və narkokuryerə çevrilirlər. Azərbaycanda insan alveri qurbanına çevrilənlərin 70 faizi erkən nikaha cəlb olunan qızlardır".

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# İslam ümmətinə qarşı həmişə ikili standartlar olub

## Qərb müsəlmanları Avropadan kənarlaşdırmaq üçün müxtəlif yollara əl atır



**ATƏT prezidentinin şəxsi nümayəndəsi, səfir Mehmet Paçacı deyib ki, Avropada yaşayan müsəlmanlara qarşı ayrıseçkilik halları artmaqdadır. Onun sözlərinə görə, müsəlmanlara qarşı stereotiplər inkişaf edib və ATƏT regionunda geniş vüsət alıb: "Avropa ölkələrində müsəlmanları terrorizm və ekstremizmlə əlaqələndirmək, müsəlman icmalarının mövcudluğunu milli kimlik üçün təhlükə kimi qələmə vermək cəhdləri artıb.**

Müsəlman ailələrinin evlərinə, eləcə də hicablı qadınlara qarşı hücumlar baş verir, müsəlmanlara qarşı nifrət aşılamaq halları artır". Mehmet Paçacı bildirib ki, ATƏT irqi və etnik nifrəti və müsəlmanlara qarşı nifrəti qətiyyətlə pisləyir, dövlətləri bu hadisələrin bütün formaları ilə mübarizə aparmağa çağırır. ATƏT rəsmisi hesab edir ki, nifrət cinayətləri, müsəlmanlara qarşı nifrət, irqçilik, ksenofobiya və ayrı-seçkiliyi anlamaq, təhlil etmək və onlarla mübarizəyə kömək etmək üçün getdikcə daha təkmil texniki vasitələrə ehtiyac var. Paçacı vurğulayıb ki, dini dözümsüzlük və ayrı-seçkilik aktlarına qarşı mübarizədə əsas məsuliyyət dövlətlərin üzərinə düşür.

**İlahiyyatçı Tural İrfan "Şərq"ə deyib ki, ümumiyyətlə Qərbdə, Amerikada müsəlmanları "radikal", "ziyanlı", "təhlükəli" qələmə vermək ənənəsi yeni deyil. Ekspertə görə, bunun kökündə Qərbin səlibçi təfəkkürdən hələ də yaxa qurtara bilməməsi dayanır:** "Qərb üzdə olmasa da, daxildə müsəlman ölkələrinə ikili standartlarla yanaşır. Qarabağ münaqişəsi dövründə bu yanaşma özünü açıq göstərdi. ATƏT-in Minsk qrupunun xristian üzvləri Ermənistanın tərəfində idilər. Müsəlman Azərbaycana münasibətdə daim susqunluq nümayiş etdirirdilər. Qərb müsəlmanların sərvətini, dövlətini talayaraq, onları radikallığa vadar edir. Müsəlmanlar etiraz etdikdə, haqlarını istədikdə bunu körükləyir və terror hədinə gətirirlər. Sonra adını qoyurlar ki, müsəlmanlar "terrorçudur". Cəmiyyət heç vaxt öz-özünə, durduğu yerdə hansısa başqa dinin nümayəndələrinə mənfi fikirdə ola bilməz. Buna səbəb olan amillər var. Qərb, Amerika tarixən müsəlman ölkələrində soyqırımlar törədib, xalqları qırıb, sərvətlərini talan ediblər. Türkiyənin başçılığı ilə müsəlman dünyasının yenidən ayağa qalxdığını görür və ehtiyat edirlər ki, güclənmiş müsəlmanlar onlardan intiqam ala bilərlər. Ona görə də "qara mənin basınca, mən qaranı basım" prizmasından yanaşaraq indidən müsəlmanlara nifrət formalaşdırırlar. Bu, saxtakarlıq və çox təhlükəli oyundur".

**T.İrfan vurğulayıb ki, müsəlmanlar radikal deyil, əgər hardasa radikal müsəlman varsa, onu Qərb vadar edib:** "Fransanın Əlcəzairdə törətdiyi soyqırım tarixə düşüb. Amerika İraqda, Əfqanıstanda, Liviyada, Suriyada dəhşətli qırğınlar edib. Görünən odur ki, qərblilərin "xaç yürüşləri" hələ də davam edir. Məsələnin dərininə gedəndə, əslində İsrail-Fələstin münaqişəsinin də kökündə Amerika, Qərb durur. Vaxtilə yəhudilərə qarşı soyqırımı törədənlər avropalılar olsa da, sonradan yəhudiləri müsəlmanlarla düşmən ediblər. Odur ki, müsəlmanlara qarşı radikal fikirlərin, Quranın yandırılmasının və başqa bu kimi halların hamısının kökündə Qərb dövlətlərinin maraqları durur. Müsəlmanları Avropadan kənarlaşdırmaq üçün müxtəlif yollara əl atırlar. Düşünürəm ki, sonda haqq, ədalət qalib gələcək".

**İsmayıl Qocayev**

**Elan**

Rzayeva Sevda Sabir qızının adına Yeni Azərbaycan Partiyasının Yasamal Rayonu Təşkilatı tərəfindən verilmiş üzvlük vəsiqəsi № 2032-74 itdiyi üçün etibarsız sayılır.

Şəhid ailəsi Bəhmənova Cəmilə Əsgər qızına məxsus Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi ilə əlil və şəhid ailələri üçün Suraxanı rayonu ərazisində inşa olunmuş 81 mənzilli yaşayış binasındakı mənzillərin bölgüsünün həyata keçirilməsi məqsədilə 26 sentyabr 2009-cu il tarixli 11/7-129ü nömrəli əmrlə yaradılmış komissiyanın 29 oktyabr 2009-cu il tarixli iclasının Qərarından Çıxarış sənədi itdiyi üçün etibarsız sayılır.

# "Ölmüş" adam necə dirildi?

## Sərdar Cəlaloğlu: "Balaca uşaq da bilir ki, itlə insan sümükləri həm quruluşu, həm ölçülərinə görə, kəskin surətdə fərqlənir"



**Sabirabad rayonunun Ətcələr kəndi ərazisində Sarvan kənd sakini Rafət Qəniyevin avtomobildə yanaraq ölməsi barədə məlumatın saxta olduğu aşkar edilib. Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Bildirilib ki, 2021-ci il 25 noyabrda Sabirabad rayonunun Ətcələr kəndi ərazisində Sarvan kənd sakini Rafət Qəniyevə məxsus "KİA" markalı avtomobilinin yanması və şəxsin tam yanmış meyitinin tapılması ilə əlaqədar əməliyyat və istintaq tədbirləri həyata keçirilib. Məlum olub ki, "Kaspian İnşaat MB"-nin direktoru R.Qəniyev MTK-ya məxsus mənzilləri dələduzluq yolu ilə müxtəlif şəxslərə satdığına görə barəsində araşdırmalar aparılıb. Buna görə də o, avtomobilə mənsəyi tam bilinməyən sümükləri qoyaraq, qəsdən yandırması və özünü ölmüş kimi qələmə verməsi müəyyən olunub. R.Qəniyev paytaxtın Yasamal rayonu ərazisində saxlanılıb.

O, "ölümünü" deyilənlərə görə, belə gerçəkləşdirib:

Meşədə ölmüş itin sümüklərini avtomobilinə yığıb yandırıb. Belə çıxıb ki, özü maşında yanıb ölüb. Həmin vaxt Fövqəladə Hallar Nazirliyinin Tibb Xidməti belə bir məlumat yayıb ki, yanğın yerinin kəşfiyyatı zamanı 1980-ci il təvəllüdlü Qəniyev Rafət Rafiq oğlunun yanmış meyiti aşkar olunaraq, aidiyyəti üzrə təhvil verilib.

**Həkim, Azərbaycan Demokratik Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu "Şərq"ə açıqlamasında həmin adamın köhnə bir qəbiristanlıqdan ölmüş insan sümüklərini yığıb, orada yandırması ehtimalı olduğunu qeyd edib:**

"Ona görə də ekspert sümüklərin insana aid olduğunu təsdiq edib. Balaca uşaq da bilir ki, itlə insan sümükləri həm quruluşu, həm ölçülərinə görə, kəskin surətdə fərqlənir. Bu, sadəcə olaraq, lağlağı məqsədli fikir ola bilər. Təbii ki, ekspertizanın keyfiyyətinin yüksəldilməsi istiqamətində də işlər görülməlidir. Öz təcrübələrimə əsaslanaraq deyə bilərəm ki, Azərbaycanda bir çox hallarda ekspertiza rəyləri həqiqətin üzə çıxmasında o qədər önəmli rol oynamır. Bu baxımdan da dövlət mümkün qədər ekspertlərin mütəxəssis kimi yetişməsinə daha çox qayğı göstərməlidir.

### *"Azərbaycanda bir çox hallarda ekspertiza rəyləri həqiqətin üzə çıxmasında o qədər önəmli rol oynamır"*

Bu gün elmin ən son nailiyyətləri əsasında Azərbaycanda Məhkəmə-Tibbi Ekspertiza maddi-texniki bazası gücləndirilməlidir. Yeni aparatlar alınmalıdır. Yəni burada problem təkcə ekspertin rəyinə, savadına deyil, həm də imkanlara bağlıdır".

**Sücayət Mehti**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1622




## Valideynlərini itirdi, yoxa çıxdı

40 il sonra qohumlarına qovuşdu



**1980-ci illərin əvvəllərində ABŞ-da valideynləri öldürüldükdən sonra yoxa çıxan bir yaşlı Holli qırx bir ildən sonra qohumlarına qovuşub. Bildirilib ki, öldürülən Klouz cütlüyünün 42 yaşlı qızı Holli hazırda Hyuston şəhərində yaşayır.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Hollinin ailəsi 41 il əvvəl Floridadan Texasa köçərkən öldürülüb. Hadisədən sonra cütlüyün 1 yaşlı uşağı körpə Holli yoxa çıxıb. Teksas Baş prokuroru müavini B. Webster bildirib ki, 42 il öncə Hollini kilsəyə iki qadın gətirib. Baş prokuror Ken Paxton, Hollini böyüdən ailənin onun bioloji valideynlərinin qətlində şübhəli olmadığını söyləyib. Hollinin nənəsi Donna Casasanta verdiyi açıqlamada, atasının ad günündə nəvəsini tapmasının onun üçün "cənnətdən bir ad günü hədiyyəsi" olduğunu söyləyib. Hazırda 5 uşaq anası olan Holli öz bioloji ailəsi ilə daim əlaqə saxlayır.

**Çimnaz Şahlar**

## Marmarisdə görüntüləndilər

Arda Turan ailəsi ilə 3 milyonluq yaxtada tətilə çıxdı



**Türkiyənin məşhur futbolçusu Arda Turan həyat yoldaşı Aslıhan Doğan Turan və uşaqları ilə tətilə yollanıb.**

"Bizim.media" xəbər verir ki, bir müddətdir futboldan ayrılacağı haqda danışan Arda Turan mövsümün yorğunluğunu atmaq üçün ailəsi ilə birlikdə Marmarisdə yayın dadını çıxarır. Ulduz futbolçu həyat yoldaşı Aslıhan oğulları Həmzə Arda və Aslan Aslanla birlikdə 3 milyon avro dəyərində qayığı ilə tətilə çıxıb. Turan ötən gün Marmarisdə görüntülənib. Məşhur oğlu Həmzə Arda ilə birlikdə dənizin dadını çıxarıb. Həyat yoldaşı Aslıhan Turan balaca Asıl Aslanı qucağına alaraq gəminin arxasından onları izləyib. Turanın ailəsinin xoş istirahəti paparazzilərin obyektivinə tuş gəlib.

## "Tik-Tok"a video çəkirdi, atəş açıldı

Atasının silahını götürən yeniyetmə xəstəxanalıq oldu



**"Tik-Tok"a video çəkmək üçün atasının silahını götürən 13 yaşlı N.Y. ( şərti ad ) təsadüfən özünü vurub.**

**"Şərq" "Hüriyyet"ə istinadən bildirir ki, hadisə Türkiyənin Tekirdağ ərazisində baş verib. Döş qəfəsindən xəsarət alan N.Y. xəstəxanaya aparılıb.**

**İddiaya görə, N.Y sosial media tətbiqi "Tik-Tok"da dostu ilə video çəkib paylaşmaq üçün evdə gizlicə atasının silahını götürüb. Daha sonra küçəyə çıxan N.Y. tapançanın dolu olduğunu anlamayıb və anidən tətiyə basıb. Silahdan açılan güllə ilə sinəsindən vurulan N.Y. səhiyyə işçiləri tərəfindən təcili yardımla Çorlu Dövlət Xəstəxanasına aparılıb. Yaralı N.Y. polislərə "Tik -Tok" videosu çəkərkən baş verdi. Heç nəyim yoxdur, məni evə buraxın" - deyib.**

**Aygün Tahir**

## Ofis işçilərində 8 xəstəlik olur

**Memarlar bunun üçün oturacağı olmayan ofis yaratmağı təklif ediblər**



**Hollandiyalı memarlar "Oturmağı dayandır" adlı unikal incəsənət obyektini təqdim ediblər.**

**Azərtac xarici saytlara istinadla xəbər verir ki, bu layihənin ideyasına uyğun olaraq, memarlar ofis işçilərini fiziki hərəkətlərə və fəaliyyətə həvəsləndirmək üçün oturma yerləri olmayan bir ofis yaratmağı təklif ediblər. Memarların fikrincə, ofis işi insanlarda 8 xəstəliyin, o cümlədən göz quruması, kürək və əzələ ağrısı, qastrit və depressiya kimi xəstəliklərin yaranmasına səbəb olur.**

## Evlilikləri heç 1 il çəkmədi

Cütlük anlaşmalı boşanmaq üçün iyulu gözləyir



**Müğənni Zeynep Bastıkla həyat yoldaşı, menecer Tolqa Akış boşanır.**

**Axşam.az xəbər verir ki, artıq ifaçı birgə yaşadıqları evdən ayrılıb. Mövzu ilə bağlı açıqlama verən Tolqa evliliyi bacara bilmədiklərini söyləyib. Zeyneb isə sosial media hesabında 4 ildir davam edən münasibətlərinin sadəcə şəkil dəyişdirəcəyini, bundan sonra dost olaraq qalacaqlarını yazıb. Cütlük anlaşmalı boşanmaq üçün iyulu gözləyir.**

***Qeyd edək ki, cütlük ötən ilin iyulunda nikat masasına əyləşib.***



# 5 ay komada qaldı, ayıldı

Yaddaşı bərpa olunduqdan sonra isə həyatının şokunu yaşadı

**5 aydan sonra komadan ayılan qadın həyatının tamamilə dəyişdiyini öyrənib.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, B.Duval 2020-ci ilin avqustunda Kanadanın Alberta ştatında baş verən qəzadan sonra yaddaşını itirib. 5 ay komada qalan Duvalın bir neçə sümüyünün sındığı, onurğa sütunundan xəsarət aldığı, beyninə qan sızdığı, qabırğalarında sınıqlar olduğu müəyyən edilib. Dəhşətli xəsarətlər alan qadın tam 5 ayını həyata qayıtmağa sərf edib.

Həkimlər gənc qadının sağ qalma şansının 10 faiz olmadığını belə açıqlamışdı. Ancaq Duval oyandı. Oyananda həyatında çox şeyin dəyişdiyini görüb. Hazırda tam sağlam olan Duval oyandıqdan sonra bir müddət yaddaşını bərpa edə bilməyib. Amma yaddaşı özünə gələn zaman 4 illik sevgilisinin onu tərk etdiyini anlayıb.

Sevgilisi Duval komada olarkən onu atıb və başqa qadınla qaçıb. Bu müddətdə nə Duvala zəng edib vəziyyəti ilə maraqlanıb, nə də bir tədbir görüb. Duval 5 aydan sonra sevgilisinə zəng vurmağa çalışıb. Lakin sevgilisi ilə əlaqə qura bilməyib.

Telefonuna gələn "İndi o, mənimlə yaşayacaq, bizimlə əlaqə saxlamağa çalışma" mesajı ilə həyatının şokunu yaşayıb. O, 4 ildir birlikdə olduğu sevgilisinin onu hər yerdən blokladığını öyrənib. "Daily Mail" qəzetinə açıqlama verən gənc qadın, yaşadıqlarından ötəri böyük bir travma keçirdiyini dilə gətirib.

**Çimnaz Şahlar**






# Dünya bu uşaqdan danışır

15 yaşlı ukraynalı uşaq oyuncaq dronla qəhrəman oldu

**Rusiyanın Ukraynanı işğalından ötən aylar ərzində həm hərb meydanında, həm də sosial həyatda bir çox gözlənilməz, qeyri-adi hallar yaşanıb. 15 yaşlı ukraynalı oğlan Andriy Pokrasa isə oyuncaq dronla əsl qəhrəmana çevrilib.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, Kiyevdə yaşayan Pokrasa ailəsi Rusiya silahlı qüvvələrinin Ukraynaya hücumunun başlandığı 24 fevral gecəsindən etibarən müdafiə imkanları, orduya necə yardım edə biləcəkləri barədə düşünməyə başlayıb. Andriyin atası oğluna aldığı oyuncaq dronu xatırlayıb. Oğlunun müasir texnologiyaları yaxşı mənimsədiyini bilən ata Andriyə "dronla ordumuza kömək edə bilərsən" deyib. Ailə Ukrayna müqavimət gücləri ilə əlaqə yaradıb, Andriyin dronla müşahidə apara biləcəyini, hərəkət edən hərbi birlikləri müşahidə altında saxlaya biləcəyini, düşmən ordusunun hərəkət marşrutunu təyin edə biləcəyini söyləyib. Müqavimət gücləri təklifi qəbul edib və 15 yaşlı oğlan Ukraynanın müdafiəsinə qatılıb. Andriy dron vasitəsiylə şəhərin ətrafındakı hərəkətliliyi təqib etməyə, şübhəli durum haqqında Ukrayna güclərinə məlumat verməyə başlayıb. Andriy hərəkət edən düşmən birliklərinin koordinatlarını müəyyənləşdirib. Eyni qaydayla Andriy Jitomir yaxınlığında hərəkət edən rus hərbi birliklərinin mövqeyini də dəqiqləşdirə bilib. Bunun sayəsində Ukrayna gücləri hərbi konvoyu Kiyevdən 37 kilometr məsafədə məhv edib. Rus ordusu xeyli itki verib. Andriy oyuncaq dronuyla əsl qəhrəmana çevrilib. Adı bütün Ukraynaya və dünyaya yayılıb. Uzun illərdir satıcı işləyən Taras Troiak da bütün dron sahiblərini bir araya toplamaq üçün feysbuk üzərində qrup təşkil edib və dron sahiblərini Ukrayna ordusuna yardım etməyə çağırıb.

**Məlahət**

## Məşhur model 1 yaşlı oğluna döymə etdirdi

**Məşhur model və aktrisa Emili Ratajkovskinin sonuncu paylaşımı müzakirələrə səbəb olub.**



Axşam.az xəbər verir ki, modelin yayımladığı fotolarda 1 yaşlı oğluna "sly" yazılı döymə etdirdiyi görünüb.

İzləyicilər döymənin həqiqi olub-olmadığını maraqlanaraq, onu bu hərəkətinə görə qınayıblar.

## "Süd vannası" davasını qazandı

Məhkum ona ödənilən maddi təzminatla razılaşmır



**"Süd vannası" deyiləndə Misir şahzadəsi Kleopatra yada düşür. Təkcə o da yox.**

Qədimlərdən günümüzədək gəlib-keçmiş hömkdarlar, xanımları, zəngin insanların bir çoxu süd vannası - süd gölündə çimib. Söhbət süd vannasının xeyrindən getməyəcək. Günümüzdə yaşanmış qəribə hadisə barədə məlumat verəcəyik. Bu barədə "Milliyet.com" saytı xəbər paylaşıb. Məlumatda qeyd olunur ki, Türkiyənin Konya şəhəri, Meram bölgəsində süd toplama mərkəzinin işçisi Emre Sayarın süd vannası qəbul etdiyinə dair görüntülər sosial şəbəkədə yayıldıqdan sonra Türkiyənin Tarım və Orman Bakanlığı hərəkətə keçib. Bakanlığın Konya üzrə şöbəsinin əməkdaşları iş yerinə gedərək tədqiqat aparıb. Yeyinti məhsullarının təmizliyi, sağlamlıq üçün təhdid daşıyan hallarla bağlı mövcud qanunun tələbləri əsas götürülərək süd toplama mərkəzinin fəaliyyətinə xitam verilib. Qida məhsulunun istehlakçılar üçün təhlükəli həddə gətirilməsi səbəbiylə mərkəzin işçisi Emre Sayar məsuliyyətə cəlb edilib, barəsində həbs-qətiimkan tədbiri seçilib. Məhkəmədən E.Sayara 2 ildən 15 ilədək həbs cəzası verilməsi tələb edilib. Lakin E.Sayar apelyasiya şikayəti ilə qəbul etdiyi "süd vannasına" yalnız dezinfeksiyaedici maddə və isti su, azacıq da süd artığı qoyduğunu sübuta yetirə bilib. Təqsirləndirilən şəxsin iddiasını araşdıran məhkəmə şəxsin uzandığı vannanın süd məhsulları üçün uyğun olmadığı, bu səbəbdən də istehlakçıların səhhətinə zərəri toxunmayacağını müəyyənləşdirərək E.Sayara bəraət verib. E.Sayar isə bununla kifayətlənməyərək təzminat davası açıb. "Pis bir şəkildə reklam olunduq, ölkədə bizi pis yöndən tanıdılar, etibarımız zədələndi. 2 ildir iş tapa bilmirəm. Buna görə də 20 min lirə maddi, 100 min lirə mənəvi təzminat davası açmışam", söyləyən E.Sayara məhkəmə qərarıyla cəmi 450 lirə maddi, 700 lirə də mənəvi təzminat ödənməsinə qərar verib. "Bu təzminat yetərli deyil. Günahsız olduğum halda 6 gün həbsxanada saxlanmışam. Psixologiyam da, ailə düzənim də pozulub, alt-üst olub", deyən E.Sayar isə yenidən məhkəməyə müraciət edəcək.

**Məlahət Rzayeva**

## İndi satılan qarpızlara iynələr vurulub

Yaşlı, hamilə qadınlar və uşaqlar risk etməməlidir



**Mövsümü olmasına baxmayaraq, artıq marketlərdə qarpız, yemiş satışına start verilib.**

Medicina.az xəbər verir ki, həkim diyetoloq Yelena Solomatina mövsümü olmadan satılan qarpızlara böyüməsi üçün stimuləedici iynələr vurulduğunu bildirib.Yaşlı, hamilə qadınlar və uşaqlar risk etməməlidir.

"Bu qarpızlara adətən selitra istifadə olunur. Ona görə də çoxlu miqdarda nitratlarla doludur. Onlar hemoqlobini qeyri-aktiv formaya çevirə bilirlər. Beləliklə, hüceyrələrin tənəffüsü pozulur, toxumalar və orqanlar hipoksiya yaşayır. hamilə qadınlar və uşaqlar qarpız yeməməlidir. Onlar üçün bu təhlükəli ola bilər. Mövsümün başlamasını gözləmək daha yaxşıdır. Yaxşı olar ki, qarpızı bostanda mövsümündə yetişəndə alıb yeyəsiz".